**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

# SOSİAL, İQTİSADİ İNKİŞAF

7

**YANVAR-İYUL**

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 7**
**12 avqust 2016-cı il**

## 2016-CI İLİN YANVAR-İYUL AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2016-cı ilin yanvar-iyul aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 32122,6 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,0 faiz az **ümumi daxili məhsul** istehsal edilmişdir. Azalmanın əsas səbəbi tikinti sektorunda istehsalın keçən ilin eyni dövrü ilə müqayisədə 30,7 faiz azalması olmuşdur. Əlavə dəyərin 38,79 faizi sənayedə, 11,30 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 9,37 faizi tikinti, 6,88 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,68 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,72 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,96 faizi informasiya və rabitə, 15,84 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,46 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 3340,6 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2016-cı ilin yanvar-iyul aylarında 17,6 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 65,1 faizi mədənçıxarma sektorunda, 28,6 faizi emal sektorunda, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda məhsul istehsalı 0,9 faiz, o cümlədən neft hasilatı 0,7 faiz artmış, əmtəəlik qaz hasilatı isə 8,0 faiz azalmışdır.

Emal sektorunda qida məhsullarının istehsalı 3,8 faiz, tütün məmulatlarının istehsalı 10,5 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 2,8 dəfə, geyim istehsalı 9,6 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 28,5 faiz, kağız və karton istehsalı 1,7 faiz, poliqrafiya məhsullarının istehsalı 3,9 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 2,3 faiz, hazır metal məmulatlarının istehsalı 17,4 faiz, kompyuter və elektron məhsullarının istehsalı 10,8 faiz, elektrik avadanlıqlarının istehsalı 2,2 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 26,8 faiz, mebel istehsalı 4,6 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 73,0 faiz artmış, içkilərin istehsalı 12,0 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 75,4 faiz, kimya sənayesi məhsullarının istehsalı 11,5 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 16,6 faiz, tikinti materiallarının istehsalı 21,3 faiz, maşın və avadanlıqların istehsalı isə 10,9 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 5,0 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,1 faiz azalmışdır.

Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 2,6 faiz, neft sektorunda isə 0,7 faiz artmışdır.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 avqust 2016-cı il vəziyyətinə 391,4 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** avqust ayının 1-nə kimi payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 98,2 faizi, yaxud 944,2 min hektarı biçilmiş və

həmin sahələrdən 2802,1 min ton məhsul götürülmüşdür. Orta hesabla hər hektardan əldə edilmiş məhsul 29,7 sentner təşkil etmişdir. Bundan əlavə, məhsulu toplanmış 3,6 min hektar qarğıdalı sahəsindən 13,9 min ton məhsul götürülmüşdür.

Yığım başlanandan sahələrdən 577,2 min ton (70,4 min ton çox) kartof, 732,7 min ton (32,7 min ton az) tərəvəz, 343,2 min ton (13,2 min ton az) bostan məhsulları, 180,1 min ton (0,4 min ton çox) meyvə və giləmeyvə, 3522 ton (321 ton çox) üzüm, 608,1 ton (244,5 ton çox) yaşıl çay yarpağı, 1616 ton (169 ton çox) günəbaxan, 2057 ton (561 ton çox) tütün yığılmışdır.

Bu dövrdə 263,6 min ton, yaxud 2015-ci ilin yanvar-iyul aylarına nisbətən 2,6 faiz çox diri çəkidə ət, 1168,8 min ton (2,1 faiz çox) süd, 947,8 milyon ədəd (5,5 faiz cox) yumurta, 15,9 min ton (1,6 faiz çox) yun istehsal olunmuşdur. Bundan başqa, ölkə üzrə 70,7 ton barama istehsal olunmuşdur.

2015-ci ilin yanvar-iyul ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 2,6 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 2,5 faiz, heyvandarlıq məhsulları istehsalı isə 2,8 faiz artmışdır.

2016-cı ilin yanvar-iyul aylarında **əsas kapitala** 7959,7 milyon manat məbləğində vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 6460,4 milyon manatı və ya 81,1 faizi məhsul istehsalı obyektlərinin, 1175,9 milyon manatı (14,8 faizi) xidmət sahələri üzrə obyektlərin, 323,4 milyon manatı (4,1 faizi) isə ümumi sahəsi 888,7 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3036,6 milyon manatını və ya 38,1 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 5643,9 milyon manatı və ya 70,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

**Nəqliyyat** sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2016-cı ilin yanvar-iyul aylarında 123,6 milyon ton yük və 1061,4 milyon sərnişin daşınmışdır. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2,1 faiz azalmış, sərnişin daşınması isə 1,9 faiz artmışdır. Yük daşınmasında müşahidə olunan gerilik dəmir yolu, dəniz və boru kəməri nəqliyyatı daşınmalarında azalmalarla bağlı olmuşdur.

Yüklərin 62,4 faizi avtomobil, 28,4 faizi boru kəməri, 6,7 faizi dəmir yolu, 2,4 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

Sərnişinlərin 88,0 faizi avtomobil, 11,8 faizi metro, qalanları isə hava və dəniz nəqliyyatı vasitələri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən 955,7 milyon manatlıq xidmətlərin 72,1 faizi əhali sektoruna aid olmuşdur. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin həcmi 12,5 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2016-cı ilin yanvar-iyul aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 16169,5 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 4036,6 milyon manatlıq ödənişli xidmət göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,0 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 1,1 faiz artmış, ticarət şəbəkəsində 7997,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8171,7 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən 2016-cı ilin yanvar-iyun aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 7868,7 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 3821,5 milyon dollarını və ya 48,6

faizini ölkədən ixrac olunmuş məhsulların, 4047,2 milyon dollarını (51,4 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 225,7 milyon dollar məbləğində mənfi saldo yaranmışdır. 2015-ci ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 14,0 faiz, o cümlədən ixrac 13,9 faiz, idxal isə 14,1 faiz azalmışdır. Ticarət dövriyyəsinin 40,0 faizi Avropa İttifaqı ölkələrinin, 16,5 faizi MDB üzvü ölkələrinin, 43,5 faizi isə digər ölkələrin payına düşmüşdür.

İdxal olunmuş məhsulların 27,2 faizi Avropa İttifaqı ölkələrinin, 24,3 faizi MDB üzvü ölkələrinin, 48,5 faizi isə digər ölkələrin payına düşmüşdür.

İxrac edilmiş məhsulların 53,5 faizi Avropa İttifaqı ölkələrinə, 8,2 faizi MDB üzvü ölkələrinə, 38,3 faizi isə digər ölkələrə göndərilmişdir.

2016-cı ilin yanvar-iyun aylarında qeyri-neft məhsullarının ixracı 2015-ci ilin eyni dövrünə nisbətən 27,0 faiz azalaraq 584,5 milyon dollar təşkil etmişdir.

2016-cı ilin yanvar-iyul aylarında 2015-ci ilin müvafiq dövrünə nisbətən **istehlak məhsullarının və xidmətlərin qiymətləri** 10,6 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 12,0 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 15,5 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 4,7 faiz artmışdır.

2016-cı ilin yanvar-iyun aylarında muzdla işləyənlərin **orta aylıq nominal əmək haqqı** 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,8 faiz artaraq 488,1 manat təşkil etmişdir.

2016-cı ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə **əhalinin gəlirləri** nominal ifadədə 8,5 faiz artaraq 25682,7 milyon manata çatmışdır. Gəlirlərin 77,0 faizi son istehlak xərclərinə, 9,1 faizi vergilərin, sığorta və üzvlük haqlarının, 2,7 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 11,2 faizi isə yığıma önəldilmişdir.

Maliyyə Nazirliyinin məlumatlarına əsasən 2016-cı ilin yanvar-iyul aylarında **dövlət büdcəsinə** 7007,5 milyon manat vəsait daxil olmuş, büdcədən 8193,5 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 1186,0 milyon manatlıq kəsir ümumi daxili məhsulun 3,7 faizi səviyyəsində olmuşdur.

Mərkəzi Bankın məlumatlarına görə, 2016-cı ilin iyul ayının 1-nə ölkənin bank və bank olmayan kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 18434,2 milyon manat təşkil etmiş, onun 14374,9 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Kredit portfeli 2015-ci il iyul ayının 1-i ilə müqayisədə 9,1 faiz azalmışdır. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 8,4 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2016-cı il iyul ayının 1-nə 7815,6 milyon manat təşkil etmişdir.

İyul ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,56 manata (ilin əvvəlindən 1,55 manata), 1 Avroya – 1,7276 manata (1,7286), 100 Rusiya rubluna – 2,43 manata (2,24) bərabər olmuşdur.

2016-cı ilin yanvar-iyun aylarında **əhalinin sayı** 49,9 min nəfər və ya 0,5 faiz artaraq 2016-cı il iyul ayının 1-i vəziyyətinə 9755,5 min nəfərə çatmışdır.

Cədvəl 1

**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**

| Göstəricinin adı | 2016-cı ilin yanvar-iyul ayları, faktiki | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün 2015-ci ilin yanvar-iyul ayları 2014-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **32 122,6** | **97,0** | **105,6** |
| o cümlədən qeyri-neft ÜDM | 20 820,1 | 94,6 | 109,0 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **3 340,6** | **95,9** | **104,3** |
| **Sənaye məhsulu, milyon manat** | **17 616,6** | **100,9** | **103,5** |
| o cümlədən qeyri-neft sənayesi | 4 660,4 | 102,6 | 114,7 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **7 959,7** | **70,3** | **103,5** |
| o cümlədən tikinti-quraşdırma işlərinə | 5 643,9 | 69,3 | 111,6 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **3 290,4** | **102,6** | **108,9** |
| o cümlədən: bitkiçilik | 1 612,7 | 102,5 | 115,8 |
| heyvandarlıq | 1 677,7 | 102,8 | 102,4 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **123,6** | **97,9** | **101,4** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1061,4** | **101,9** | **103,7** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **955,7** | **112,5** | **110,7** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **16 169,5** | **102,0** | **112,5** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **4 036,6** | **101,1** | **106,7** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **7 007,5** | **74,7** | **84,6** |
| **Dövlət büdcəsinin xərcləri milyon manat** | **8 193,5** | **82,2** | **96,7** |
| **Dövlət büdcəsinin kəsiri, milyon manat** | **1 186,0** | - | - |
| **Əhalinin gəlirləri, milyon manat** | **25 682,7** | **108,5** | **106,4** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin hər nəfərinə düşən gəlirlər, manat** | **2 670,9** | **107,3** | **105,1** |
| **Əhalinin banklardakı əmanətləri, 2016-cı il 01 iyul vəziyyətinə, milyon manat** | **7 815,6** | **102,1** | **113,9** |
| **Kredit qoyuluşları, 2016-cı il 01 iyul vəziyyətinə, milyon manat** | **18 434,2** | **90,9** | **121,1** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 539,8 | 115,0 | 152,5 |
| **Orta aylıq əmək haqqı, manat** | **488,1** x) | **106,8** xx) | **104,0** xxx) |
| **İstehlak qiymətlərinin indeksi** | **-** | **110,6** | **103,7** |
| **Əhalinin sayı, 2016-cı il 01 iyul vəziyyətinə, min nəfər** | **9 755,5** | **101,2** | **101,2** |
| Statistika məlumatı[1) ] | | | |
| **Xarici ticarət dövriyyəsi, milyon ABŞ $** | **10 325,9** x) | **92,5** xx) | **104,3** xxx) |
| o cümlədən: ixrac | 6 278,7 x) | 95,9 xx) | 102,2 xxx) |
| idxal | 4 047,2 x) | 85,9 xx) | 112,7 xxx) |
| Gömrük məlumatı[2)] | | | |
| **Xarici ticarət dövriyyəsi, milyon ABŞ $** | **7 868,7** x) | **86,0** xx) | **104,1** xxx) |
| o cümlədən: ixrac | 3 821,5 x) | 86,1 xx) | 101,0 xxx) |
| ondan qeyri-neft ixracı | 584,5 x) | 73,0 xx) | 116,0 xxx) |
| idxal | 4 047,2 x) | 85,9 xx) | 112,7 xxx) |

**Qeyd:**

x) 2016-cı ilin yanvar-iyun ayları.

xx) 2016-cı ilin yanvar- iyun ayları 2015-ci ilin yanvar- iyun aylarına nisbətən (orta aylıq əmək haqqına münasibətdə nominal ifadədə, xarici ticarət dövriyyəsinə münasibətdə isə müqayisəli qiymətlərlə).

xxx) 2015-ci ilin yanvar- iyun ayları 2014-cü ilin yanvar-iyun aylarına nisbətən (orta aylıq əmək haqqına münasibətdə nominal ifadədə, xarici ticarət dövriyyəsinə münasibətdə isə müqayisəli qiymətlərlə).

1) Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

2) Hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan xam neft və təbii qazın dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

# Ümumi Daxili Məhsul

2016-cı ilin yanvar-iyul aylarında ölkədə 32122,6 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 3,0 faiz az ümumi daxili məhsul istehsal edilmişdir. Azalmanın əsas səbəbi tikinti sektorunda məhsul və xidmətlər istehsalının 30,7 faiz azalması olmuşdur.

Eyni zamanda, informasiya və rabitə sahələrində istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 3,0 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 2,6 faiz, emal sənayesində 2,8 faiz, mədənçıxarma sənayesində 2,5 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində isə 2,0 faiz artmışdır.

Bu dövrdə ümumi daxili məhsulun 38,79 faizi sənayedə, 11,30 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində, 9,37 faizi tikintidə, 6,88 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,68 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,72 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,96 faizi informasiya və rabitə sahələrində, 15,84 faizi isə digər sahələrdə istehsal edilmişdir.

Məhsula və idxala xalis vergilər ÜDM-in 7,46 faizini təşkil etmişdir.

Ümumi daxili məhsulun əhalinin hər nəfərinə düşən məbləği 3340,6 manat (2155,2 ABŞ dolları) təşkil etmişdir.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-iyul | | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | **2016** | **2015*** | |
| **Ümumi Daxili Məhsul** | **32122,6** | **30024,0** | **97,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1823,3 | 1935,6 | 102,6 |
| Sənaye | 12462,0 | 10998,1 | 102,1 |
| o cümlədən:<br>mədənçıxarma sənayesi | 10121,1 | 8808,1 | 102,5 |
| emal sənayesi | 1710,3 | 1495,9 | 102,8 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 575,4 | 642,4 | 95,0 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 55,2 | 51,7 | 99,9 |
| Tikinti | 3009,4 | 3390,0 | 69,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 3629,3 | 3137,7 | 102,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2211,0 | 1798,9 | 96,5 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 873,8 | 781,8 | 103,0 |
| İnformasiya və rabitə | 630,8 | 618,8 | 112,5 |
| Digər sahələr | 5087,0 | 5024,0 | 97,6 |
| **Məhsula və idxala xalis vergilər** | **2396,0** | **2339,1** | **95,2** |
| **ÜDM-in deflyatoru** | **110,3** | **88,8** | **x** |

Cədvəl 3

## Neft və qeyri-neft sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-iyul | | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | **2016** | **2015*** | |
| **Ümumi Daxili Məhsul** | **32122,6** | **30024,0** | **97,0** |
| o cümlədən:<br>neft sektoru | 11302,5 | 9965,5 | 102,0 |
| qeyri-neft sektoru | 20820,1 | 20058,5 | 94,6 |

*) 2015-ci ilin aylıq göstəriciləri ilin yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



## Sənaye

2016-cı ilin yanvar-iyul aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 0,9 faiz artaraq 17,6 milyard manat təşkil etmişdir. Sənayenin qeyri-neft sektorunda istehsal əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz, neft sektorunda isə 0,7 faiz artmışdır. Sənaye məhsulunun 65,1 faizi mədənçıxarma, 28,6 faizi emal, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 79,8 faiz olmuşdur. Ümumi istehsalın 86,7 faizi sənaye məhsulunun istehsalı, 13,3 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,** sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2015-ci il** | | |
| Yanvar | 101,7 | 101,4 |
| Fevral | 93,3 | 102,3 |
| Mart | 112,8 | 103,9 |
| Aprel | 95,9 | 103,7 |
| May | 104,7 | 103,7 |
| İyun | 94,2 | 103,8 |
| İyul | 103,4 | 103,5 |
| Avqust | 93,2 | 102,3 |
| Sentyabr | 97,2 | 102,1 |
| Oktyabr | 99,6 | 102,2 |
| Noyabr | 102,4 | 103,0 |
| Dekabr | 100,0 | 102,4 |
| **2016-cı il** | | |
| Yanvar | 101,9 | 96,9 |
| Fevral | 99,2 | 99,9 |
| Mart | 107,8 | 99,4 |
| Aprel | 95,1 | 98,9 |
| May | 109,8 | 99,7 |
| İyun | 99,2 | 100,6 |
| İyul | 100,3 | 100,9 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 avqust 2016-cı il vəziyyətinə 391,4 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 70,1 faizi Bakı, 6,0 faizi Sumqayıt, 4,5 faizi Gəncə, 1,3 faizi Şirvan, 0,2 faizi Mingəçevir şəhərlərinin, qalan hissəsi isə digər rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 27,2 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 11,5 milyard manat olmaqla əvvəlki ilin yanvar-iyul aylarına nisbətən 0,9 faiz artmışdır.

Sahənin əsas məhsulu olan xam neftin hasilatı 24,7 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 11,0 milyard kub metr təşkil etmişdir. Neft hasilatı 0,7 faiz artmış, qaz hasilatı isə 8,0 faiz azalmışdır.

Cədvəl 5

**Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növləri**

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 24 700,4 | 100,7 | 369,1 |
| ondan əmtəəlik | 24 670,1 | 100,7 | 369,1 |
| Təbii qaz, milyon kub metr | 17 460,8 | 100,9 | 1 097,1 |
| ondan əmtəəlik | 11 015,4 | 92,0 | 1 097,1 |

…ardı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metal filizlərinin hasilatı** | | | |
| Dəmir filizi, min ton | 25,5 | 35,6 | 52,0 |
| Mis filizləri və konsentratları, ton | 1 049,3 | 2,1 d. | 149,4 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 1 336,0 | 96,9 | 32,8 |
| o cümlədən : qızıl | 1 115,9 | 84,2 | 17,8 |
| gümüş | 220,1 | 4,1 d. | 15,0 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| Tikinti qumu, min ton | 141,0 | 38,4 | 16,3 |
| İnşaat üçün əhəng daşı, min ton | 137,9 | 67,9 | - |
| Çınqıl, qırmadaş, xırda çay daşı, min ton | 356,4 | 68,4 | 71,5 |
| Duz, ton | 34 417,7 | 164,3 | 312,2 |
| ondan əmtəəlik | 2 892,3 | 112,8 | 312,2 |
| Bentonit, min ton | 18,0 | 79,8 | 38,1 |
| ondan əmtəəlik | 14,8 | 70,3 | 38,1 |
| Gips və anhidrit, ton | 6 572,6 | 168,5 | 913,1 |

Qrafik 2

## Neft və qaz hasilatının aylar üzrə dinamikası



## Emal sənayesi

Emal sənayesində yanvar-iyul aylarında 5,0 milyard manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 6

### Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2015-ci il** | | |
| Yanvar | 88,7 | 92,4 |
| Yanvar-fevral | 90,2 | 87,5 |
| Yanvar-mart | 103,3 | 108,1 |
| Yanvar-aprel | 113,4 | 115,9 |
| Yanvar-may | 117,0 | 118,9 |
| Yanvar-iyun | 119,0 | 121,4 |
| Yanvar-iyul | 116,8 | 123,5 |
| Yanvar-avqust | 111,5 | 118,6 |
| Yanvar-sentyabr | 109,4 | 116,7 |
| Yanvar-oktyabr | 108,4 | 115,7 |
| Yanvar-noyabr | 106,5 | 113,4 |
| Yanvar-dekabr | 107,0 | 115,6 |
| **2016-cı il** | | |
| Yanvar | 102,4 | 106,9 |
| Yanvar-fevral | 106,4 | 111,9 |
| Yanvar-mart | 105,7 | 112,8 |
| Yanvar-aprel | 102,6 | 112,0 |
| Yanvar-may | 102,3 | 110,9 |
| Yanvar-iyun | 104,2 | 109,7 |
| Yanvar-iyul | 102,8 | 108,5 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 7

**Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı**

| Fəaliyyət növlərinin adı | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir, milyon manat | 2015-ci ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi*** | 5 041,1 | 102,8 |
| o cümlədən: qida məhsullarının istehsalı | 1 798,9 | 103,8 |
| içki istehsalı | 110,1 | 88,0 |
| tütün məmulatlarının istehsalı | 27,3 | 110,5 |
| toxuculuq sənayesi | 26,7 | 2,8 d. |
| geyim istehsalı | 31,1 | 109,6 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 5,6 | 24,6 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 7,9 | 128,5 |
| kağız və karton istehsalı | 32,2 | 101,7 |
| poliqrafiya məhsullarının istehsalı | 19,2 | 103,9 |
| neft məhsullarının istehsalı | 1 594,1 | 95,4 |
| kimya sənayesi | 209,1 | 88,5 |
| əczaçılıq məhsullarının istehsalı | 0,5 | 96,3 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 91,0 | 83,4 |

..ardı

| Fəaliyyət növlərinin adı | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir, min manat | 2015-ci ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| tikinti materiallarının istehsalı | 188,0 | 78,7 |
| metallurgiya sənayesi | 147,0 | 102,3 |
| hazır metal məmulatlarının istehsalı | 69,2 | 117,4 |
| kompyuter və elektron məhsullarının istehsalı | 45,3 | 110,8 |
| elektrik avadanlıqlarının istehsalı | 41,3 | 2,2 d. |
| maşın və avadanlıqların istehsalı | 83,2 | 89,1 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 67,1 | 126,8 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 6,2 | 97,7 |
| mebellərin istehsalı | 27,4 | 104,6 |
| zərgərlik məmulatları, musiqi alətləri və tibb avadanlıqlarının istehsalı | 5,0 | 52,3 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 407,7 | 173,0 |

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

Əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə qida məhsullarının istehsalında 3,8 faiz, tütün məmulatlarının istehsalında 10,5 faiz artım, içki istehsalında isə 12,0 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından olan pendir və kəsmik istehsalı 2,2 faiz artaraq 27,8 min ton, marqarin istehsalı 56,0 faiz artaraq 26,7 min ton, kərə yağı istehsalı 6,5 faiz artaraq 14,8 min ton, qənd istehsalı 11,0 faiz artaraq 215,6 min ton, likörlər istehsalı 2,4 dəfə artaraq 93,2 min dkl, mineral suların istehsalı 1,8 dəfə artaraq 8,7 milyon dkl, alkoqolsuz içkilərin istehsalı 29,1 faiz azalaraq 10,6 milyon dkl təşkil etmişdir.

Cədvəl 8

## Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulat-larının istehsalı |
| **2015-ci il** | | | |
| Yanvar | 90,4 | 108,0 | 148,9 |
| Yanvar-fevral | 92,4 | 101,5 | 110,9 |
| Yanvar-mart | 103,5 | 103,0 | 87,9 |
| Yanvar-aprel | 103,9 | 99,5 | 82,3 |
| Yanvar-may | 103,8 | 93,6 | 77,9 |
| Yanvar-iyun | 103,7 | 95,6 | 80,5 |
| Yanvar-iyul | 103,5 | 96,6 | 79,0 |
| Yanvar-avqust | 103,5 | 95,2 | 83,3 |
| Yanvar-sentyabr | 103,6 | 91,4 | 85,9 |
| Yanvar-oktyabr | 103,8 | 90,8 | 89,8 |
| Yanvar-noyabr | 103,6 | 89,9 | 90,5 |
| Yanvar-dekabr | 102,9 | 88,8 | 90,3 |
| **2016-cı il** | | | |
| Yanvar | 102,1 | 88,6 | 138,2 |
| Yanvar-fevral | 102,0 | 81,3 | 180,4 |
| Yanvar-mart | 102,3 | 90,7 | 187,5 |
| Yanvar-aprel | 102,3 | 108,2 | 152,1 |
| Yanvar-may | 103,0 | 106,2 | 133,9 |
| Yanvar-iyun | 104,5 | 91,8 | 117,2 |
| Yanvar-iyul | 103,8 | 88,0 | 110,5 |

Qrafik 4

## Qida məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 9

## Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin istehsalı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Ət (quş əti daxil olmaqla), min ton | 168,1 | 101,7 | - |
| Kolbasa məmulatları, ton | 1 948,8 | 152,2 | 3,4 |
| Üzlü süd, min ton | 507,7 | 102,4 | - |
| Qaymaq və xama, ton | 2 760,7 | 100,9 | - |
| Pendir və kəsmik, ton | 27 849,7 | 102,2 | 72,9 |
| Kərə yağı, ton | 14 765,2 | 106,5 | 2,4 |
| Cem və marmeladlar, ton | 19 858,4 | 99,8 | 15,5 |
| Duru bitki yağları, ton | 33 294,2 | 88,0 | 1 329,7 |
| Marqarin, ton | 26 729,2 | 156,0 | 78,9 |
| İnsanın qidalanması üçün yararlı olan duz, ton | 32 342,0 | 167,8 | 868,3 |
| Qablaşdırılmış çay, ton | 5 956,0 | 2,3 d. | 1 052,8 |
| Qənd, min ton | 215,6 | 111,0 | 25,4 |

…ardı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Çörək və çörək-bulka məmulatları (əmtəəlik), min ton | 444,5 | 101,0 | - |
| **İçki məhsulları** | | | |
| Şampan şərabı, min dkl | 0,4 | 20,0 | 4,4 |
| Araq, min dkl | 350,6 | 81,3 | 65,0 |
| Brendi (konyak), min dkl | 4,2 | 2,1 d. | 29,3 |
| Üzüm şərabı, min dkl | 444,0 | 78,2 | 844,3 |
| Pivə, min dkl | 2 084,3 | 78,8 | 386,3 |
| Likörlər, min dkl | 93,2 | 2,4 d. | 61,1 |
| Mineral sular, min dkl | 8 747,8 | 183,1 | 12,3 |
| Alkoqolsuz içkilər, min dkl | 10 623,3 | 70,9 | 1 488,1 |
| **Tütün məmulatları** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 1 118,8 | 164,7 | - |
| Papiros və siqaretlər, milyon ədəd | 1 132,8 | 106,3 | 0,1 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 63,4 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə toxuculuq sənayesində 2,8 dəfə, geyim istehsalında 9,6 faiz artım, dəri və dəridən məmulatlar, ayaqqabı istehsalında isə 75,4 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 10

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2015-ci il** | | | |
| Yanvar | 20,8 | 99,8 | 2,1 d. |
| Yanvar-fevral | 20,3 | 77,4 | 3,0 d. |
| Yanvar-mart | 28,9 | 116,9 | 2,4 d. |
| Yanvar-aprel | 30,3 | 100,1 | 2,4 d. |
| Yanvar-may | 32,2 | 92,8 | 2,6 d. |
| Yanvar-iyun | 30,4 | 79,7 | 2,4 d. |
| Yanvar-iyul | 29,2 | 71,9 | 2,1 d. |
| Yanvar-avqust | 30,6 | 71,3 | 188,6 |
| Yanvar-sentyabr | 32,4 | 63,3 | 174,1 |
| Yanvar-oktyabr | 37,2 | 60,2 | 152,5 |
| Yanvar-noyabr | 39,8 | 59,2 | 108,7 |
| Yanvar-dekabr | 44,8 | 55,8 | 103,0 |
| **2016-cı il** | | | |
| Yanvar | 2,9 d. | 58,7 | 31,2 |
| Yanvar-fevral | 3,1 d. | 123,5 | 17,0 |
| Yanvar-mart | 3,2 d. | 86,0 | 21,9 |
| Yanvar-aprel | 3,5 d. | 80,4 | 27,1 |
| Yanvar-may | 2,9 d. | 100,3 | 26,4 |
| Yanvar-iyun | 3,0 d. | 95,8 | 23,6 |
| Yanvar-iyul | 2,8 d. | 109,6 | 24,6 |

Cədvəl 11

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq lifi, ton | 2 799,6 | 6,5 d. | - |
| Hazır pambıq parçalar, min kv.m | 645,7 | 12,6 | 468,8 |
| Pambıq iplik, ton | 7 447,3 | 2,0 d. | 599,7 |
| ondan əmtəəlik | 6 400,9 | 2,9 d. | 599,7 |
| Pambıq yataq ağları, min ədəd | 348,3 | 2,4 d. | 0,8 |
| Xalça və xalça məmulatları, kv.m | 102,5 | 44,7 | 800,2 |
| **Geyim istehsalı** | | | |
| Üst trikotaj geyimləri, min ədəd | 255,4 | 2,4 d. | 10,0 |
| Alt trikotaj geyimləri, min ədəd | 154,5 | 78,1 | 13,6 |
| Corab, min cüt | 1 165,5 | 97,2 | 33,8 |
| Kişilər üçün kostyum və komplektlər, ədəd | 159 833 | 137,5 | 500 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Dəri, min kv.m | 161,1 | 24,8 | 140,0 |
| Aşılanmış xəz dərilər, min kv.m | 68,5 | 68,4 | 9,6 |
| Ayaqqabı, min cüt | 277,2 | 99,0 | 70,6 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 1594,1 milyon manat olmaqla əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə 4,6 faiz azalmışdır. Neft məhsullarından sürtkü yağlarının istehsalı 63,0 faiz, dizel yanacağının istehsalı 22,8 faiz, neft koksunun istehsalı 25,2 faiz azalmış, yanacaq mazutunun və avtomobil benzininin istehsalı isə artmışdır.

Cədvəl 12

**Neft məhsullarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 680,9 | 100,7 | 66,6 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 114,4 | 98,5 | 3,7 |
| Ağ neft, min ton | 385,6 | 98,3 | 53,4 |
| Dizel yanacağı, min ton | 1 352,2 | 77,2 | 145,9 |
| Yanacaq mazutu, min ton | 405,4 | 5,9 d. | 14,3 |
| Sürtkü yağları, min ton | 5,1 | 37,0 | 9,1 |
| Neft bitumu, min ton | 85,4 | 91,1 | 4,1 |
| Neft koksu, min ton | 112,1 | 74,8 | 9,2 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 300,6 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə məhsul buraxılışı kimya sənayesində 11,5 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında 16,6 faiz, əczaçılıq məhsullarının istehsalında isə 3,7 faiz azalmışdır.

Əsas kimya məhsullarından arqonun istehsalı 3,1 faiz, yodun istehsalı 18,4 faiz, metanolun istehsalı 42,9 faiz, azalmışdır. Bununla yanaşı, yuyucu maddələrin istehsalı 2,3 dəfə, lak-boya məmulatlarının istehsalı 57,2 faiz, izopropil spirtinin istehsalı 54,7 faiz artmışdır. Rezin və plastmas məmulatlarından bərk polietilen boruların istehsalı 35,2 faiz, plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlərin istehsalı 75,1 faiz, məsaməli polistirol lövhələr və zolaqların istehsalı 3,0 faiz azalmışdır.

Cədvəl 13

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2015-ci il** | | | |
| Yanvar | 133,7 | 144,9 | 119,3 |
| Yanvar-fevral | 120,6 | 72,3 | 129,3 |
| Yanvar-mart | 157,9 | 85,6 | 128,7 |
| Yanvar-aprel | 184,2 | 68,7 | 117,3 |
| Yanvar-may | 2,0 d. | 72,1 | 108,2 |
| Yanvar-iyun | 2,2 d. | 74,4 | 104,5 |
| Yanvar-iyul | 2,2 d. | 62,0 | 95,3 |
| Yanvar-avqust | 2,1 d. | 59,9 | 88,9 |
| Yanvar-sentyabr | 197,2 | 55,0 | 82,8 |
| Yanvar-oktyabr | 187,0 | 55,0 | 77,0 |
| Yanvar-noyabr | 148,0 | 51,8 | 73,3 |
| Yanvar-dekabr | 143,2 | 38,7 | 78,6 |
| **2016-cı il** | | | |
| Yanvar | 78,6 | 38,0 | 59,4 |
| Yanvar-fevral | 86,3 | 63,1 | 49,5 |
| Yanvar-mart | 93,6 | 88,8 | 54,1 |
| Yanvar-aprel | 86,2 | 92,4 | 75,6 |
| Yanvar-may | 81,2 | 87,8 | 77,4 |
| Yanvar-iyun | 83,9 | 81,2 | 77,1 |
| Yanvar-iyul | 88,5 | 96,3 | 83,4 |

Qrafik 5

## Kimya sənayesi məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Arqon, min kub m | 115,7 | 96,9 | 2,4 |
| ondan əmtəəlik | 113,1 | 97,0 | 2,4 |
| Yod, ton | 115,2 | 81,6 | 3,2 |
| ondan əmtəəlik | 113,1 | 98,7 | 3,2 |
| Barium sulfat, min ton | 36,0 | 109,4 | 5,7 |
| Propilen, min ton | 33,2 | 105,2 | 2,7 |
| ondan əmtəəlik | 26,7 | 99,8 | 2,7 |
| Polietilen, min ton | 61,7 | 110,1 | 1,7 |
| Metanol (metil spirti), min ton | 51,8 | 57,1 | 41,7 |
| Etilen, min ton | 63,7 | 110,3 | 0,05 |
| İzopropil spirti (mütləq), ton | 7 532,0 | 154,7 | 704,6 |
| Lak-boya məmulatları, ton | 3 665,1 | 157,2 | 142,2 |
| Kosmetik preparatlar, min manat | 955,3 | 4,9 | 711,2 |
| Yuyucu maddələr, ton | 145,6 | 2,3 d. | 32,1 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 5 205,5 | 64,8 | 1 000,4 |

…ardı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Bərk polipropilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 1 129,8 | 47,2 | 361,8 |
| Liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqlar, ton | 5 453,6 | 12,5 d. | 244,0 |
| Məsaməli polistirol lövhələr və zolaqlar, ton | 375,9 | 97,0 | 168,9 |
| Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton | 20,8 | 24,9 | 40,9 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat | 56,1 | 92,9 | 31,9 |
| Tərkibində qarışıq və ya xalis məhsullar olan, digər qruplara daxil edilməyən, pərakəndə satış üçün qablaşdırılan sair dərmanlar, min manat | 95,4 | 100,1 | 72,8 |

**Tikinti materiallarının istehsalı** sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri 21,3 faiz azalaraq 188,0 milyon manat təşkil etmişdir. Sementin istehsalı 20,8 faiz, beton qarışığının istehsalı 53,6 faiz, tikinti gipsinin istehsalı 30,2 faiz, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərinin istehsalı 60,0 faiz azalmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

**Tikinti materiallarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sement, min ton | 1 283,8 | 79,2 | 48,6 |
| Tikinti gipsi, min ton | 75,2 | 69,8 | 1,6 |
| Tikinti əhəngi, ton | 15 506,3 | 147,9 | 6,0 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, ton | 35 032,1 | 40,0 | 5 522,0 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub m | 36,5 | 2,9 d. | 1,6 |
| Asfalt, min ton | 257,4 | 132,1 | - |
| Tikinti kərpici, min kub metr | 114,1 | 71,9 | 19,9 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 284,2 | 46,4 | - |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 3 112,8 | 43,1 | - |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində yanvar-iyul aylarında 216,2 milyon manatlıq məhsul istehsal olunmuş, metallurgiya sənayesində 2,3 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 17,4 faizlik artım müşahidə olunmuşdur. Yanvar-iyul ayları ərzində sahə üzrə 33,1 min ton (80,9 faiz çox) polad borular, 186,4 min ton (34,8 faiz çox) polad tökmə, 1,5 min ton (5,4 dəfə çox) ayna çuqun və sair tökmə çuqun istehsal edilmişdir.

Cədvəl 16

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2015-ci il** | | |
| Yanvar | 61,3 | 102,7 |
| Yanvar-fevral | 49,0 | 107,6 |
| Yanvar-mart | 82,0 | 108,0 |
| Yanvar-aprel | 103,3 | 176,9 |
| Yanvar-may | 114,4 | 190,6 |
| Yanvar-iyun | 121,9 | 196,6 |
| Yanvar-iyul | 107,8 | 140,7 |
| Yanvar-avqust | 106,0 | 153,7 |
| Yanvar-sentyabr | 105,1 | 162,0 |
| Yanvar-oktyabr | 102,1 | 155,7 |
| Yanvar-noyabr | 97,1 | 158,6 |
| Yanvar-dekabr | 96,0 | 154,1 |
| **2016-cı il** | | |
| Yanvar | 106,9 | 2,1 d. |
| Yanvar-fevral | 150,8 | 193,7 |
| Yanvar-mart | 111,5 | 180,2 |
| Yanvar-aprel | 100,4 | 136,5 |
| Yanvar-may | 90,6 | 118,6 |
| Yanvar-iyun | 105,5 | 109,4 |
| Yanvar-iyul | 102,3 | 117,4 |

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Ayna çuqun və sair tökmə çuqun, ton | 1 541,1 | 5,4 d. | 114,9 |
| ondan əmtəəlik | 1 520,5 | 5,5 d. | 114,9 |
| Polad tökmə, min ton | 186,4 | 134,8 | 3,9 |
| Armatur, min ton | 138,0 | 93,2 | 3,3 |
| ondan əmtəəlik | 137,9 | 93,1 | 3,3 |
| Polad borular, ton | 33 051,1 | 180,9 | 89,4 |
| Emal edilməmiş alüminium ərintiləri, min ton | 23,4 | 73,5 | 0,3 |
| Paslanmayan poladdan soyuq formalı profillər, ton | 2 980,0 | 42,6 | 9 980,2 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Qara metallardan qeyri-elektrik radiatorlar və onların hissələri, ton | 18,9 | 64,9 | - |
| Qara metallardan sair konstruksiyalar, ton | 3 994,3 | 131,0 | 4 253,0 |
| Metalların üst təbəqəsinin emalı üzrə xidmətlər, min manat | 23 743,3 | 109,5 | - |
| Mayelər üçün çənlər, sisternlər, ton | 145,2 | 132,1 | 40,0 |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 1 521,5 | 75,9 | - |

**Kompyuter və elektron məhsullarının, elektrik avadanlıqlarının istehsalı** sahələrində 86,6 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə kompyuter və elektron məhsullarının istehsalı 10,8 faiz, elektrik avadanlıqlarının istehsalı isə 2,2 dəfə artmışdır. Yeddi ay ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maye və qazların məsrəfinin və ya səviyyəsinin ölçülməsi üçün

cihazların istehsalı 2,0 dəfə, monitorların istehsalı 102,4 dəfə artmış, məişət soyuducularının istehsalı 31,4 faiz, 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqillərinin istehsalı 94,9 faiz azalmışdır. Bununla yanaşı, hesabat dövründə 8,2 min ədəd qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatları istehsal edilmişdir.

Cədvəl 18

**Kompyuter və elektron məhsullarının, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompyuter və elektron məhsullarının istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2015-ci il** | | |
| Yanvar | 2,6 d. | 185,2 |
| Yanvar-fevral | 33,6 | 173,6 |
| Yanvar-mart | 79,2 | 150,5 |
| Yanvar-aprel | 57,0 | 172,1 |
| Yanvar-may | 63,5 | 191,2 |
| Yanvar-iyun | 2,0 d. | 2,0 d. |
| Yanvar-iyul | 192,0 | 138,7 |
| Yanvar-avqust | 175,1 | 129,4 |
| Yanvar-sentyabr | 171,9 | 120,8 |
| Yanvar-oktyabr | 198,6 | 111,7 |
| Yanvar-noyabr | 2,0 d. | 106,7 |
| Yanvar-dekabr | 2,1 d. | 101,8 |
| **2016-cı il** | | |
| Yanvar | 105,0 | 44,2 |
| Yanvar-fevral | 167,6 | 55,7 |
| Yanvar-mart | 2,4 d. | 102,3 |
| Yanvar-aprel | 2,7 d. | 107,8 |
| Yanvar-may | 3,1 d. | 154,8 |
| Yanvar-iyun | 123,6 | 2,1 d. |
| Yanvar-iyul | 110,8 | 2,2 d. |

Cədvəl 19

### Kompyuter və elektron məhsullarının, elektrik avadanlıqlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatları, ədəd | 8 180 | - | 1 620 |
| Maye və qazların məsrəfinin və ya səviyyəsinin ölçülməsi üçün cihazlar, ədəd | 74 370 | 2,0 d. | 50 |
| Monitorlar, ədəd | 512 | 102,4 d. | - |
| 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqilləri, ton | 2 095,5 | 72,1 | 4 711,6 |
| 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, ton | 167,7 | 5,1 | 4 184,0 |
| Televizorlar, ədəd | - | - | 4 349 |
| Məişət soyuducuları, ədəd | 1 233 | 68,6 | 1 335 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 156,5 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə maşın və avadanlıqların istehsalı 10,9 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 2,3 faiz azalmış, avtomobil və qoşquların istehsalı isə 26,8 faiz artmışdır. Yeddi ay ərzində 67,1 faiz az minik avtomobili, 11,1 faiz az ştanqlı quyu nasosları istehsal edilmişdir. Bununla yanaşı, hesabat dövründə 602 ədəd traktor, 138 ədəd qoşqular və yarımqoşqular, 272 ədəd yük avtomobili istehsal edilmişdir.

Cədvəl 20

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2015-ci il** | | | |
| Yanvar | 82,0 | 10,5 d. | 174,3 |
| Yanvar-fevral | 81,7 | 77,4 | 83,6 |
| Yanvar-mart | 86,7 | 100,6 | 86,0 |
| Yanvar-aprel | 67,0 | 85,9 | 69,4 |
| Yanvar-may | 73,3 | 73,8 | 73,7 |
| Yanvar-iyun | 74,8 | 72,9 | 97,9 |
| Yanvar-iyul | 75,0 | 74,7 | 98,1 |
| Yanvar-avqust | 71,9 | 76,0 | 98,9 |
| Yanvar-sentyabr | 67,7 | 86,9 | 98,7 |
| Yanvar-oktyabr | 70,4 | 98,8 | 98,9 |
| Yanvar-noyabr | 70,2 | 104,5 | 99,5 |
| Yanvar-dekabr | 71,5 | 104,6 | 94,6 |
| **2016-cı il** | | | |
| Yanvar | 70,7 | 2,4 d. | 89,4 |
| Yanvar-fevral | 68,3 | 119,6 | 89,0 |
| Yanvar-mart | 72,8 | 118,2 | 87,4 |
| Yanvar-aprel | 79,5 | 148,4 | 91,4 |
| Yanvar-may | 70,7 | 141,5 | 93,8 |
| Yanvar-iyun | 77,0 | 143,8 | 95,7 |
| Yanvar-iyul | 89,1 | 126,8 | 97,7 |

Cədvəl 21

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Fəvvarə armaturu, ton | 104,1 | 106,1 | 145,4 |
| Ştanqlı quyu nasosları, ədəd | 2 329 | 88,9 | 972 |

…ardı

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Soyuducu və dondurucu avadanlıq, ədəd | 109 | - | - |
| Məişət kondisionerləri, ədəd | - | - | 24 |
| Odsöndürənlər, ədəd | 16 060 | 62,6 | - |
| Traktorlar, ədəd | 602 | 98,7 | 2 |
| Kotanlar, ədəd | 5 | 5,0 d. | - |
| Xüsusi təyinatlı kommunal maşınlar, ədəd | 842 | 193,6 | 244 |
| Yük avtomobilləri, ədəd | 272 | 149,5 | - |
| Minik avtomobilləri, ədəd | 107 | 32,9 | 182 |
| Yüklərin daşınması üçün sair qoşqular və yarımqoşqular, ədəd | 138 | 110,4 | 2 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda yeddi ay ərzində 973,7 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə 5,0 faizlik azalma müşahidə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 0,1 faiz azalaraq 141,6 milyon manat təşkil etmişdir.

Cədvəl 22

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir, milyon manat | 2015-ci ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 973,7 | 95,0 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 141,6 | 99,9 |

Cədvəl 23

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2016-cı ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | | |
| Elektrik enerjisi, milyon kVt-saat | 12 938,4 | 95,0 | - |
| ondan əmtəəlik | 12 359,8 | 95,2 | - |
| su elektrik stansiyalarının istehsalı | 1 276,5 | 121,7 | - |
| istilik elektrik stansiyalarının istehsalı | 11 036,0 | 92,5 | - |
| küləklə işləyən stansiyaların istehsalı | 10,6 | 2,6 d. | - |
| günəş enerjisi ilə işləyən stansiyaların istehsalı | 36,7 | 17,5 d. | - |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, milyon kub metr | 145,8 | 98,5 | - |

2016-cı ilin yanvar-iyun aylarında sənayedə çalışan muzdlu işçilərin orta siyahı sayı 190,5 min nəfər təşkil etmiş, onların 34,0 min nəfəri mədənçıxarma, 100,3 min nəfəri emal, 26,8 min nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 29,4 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində çalışmışdır.

Qrafik 7

**Sənaye işçilərinin sayının fəaliyyət növləri üzrə bölgüsü,** yekuna nisbətən




Yanvar-iyun aylarında sənayedə işləyənlərin orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,0 faiz artaraq 888,8 manata çatmışdır. Əmək haqqı mədənçıxarma sənayesində 33,9 faiz, emal sənayesində 5,4 faiz artmış, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 1,0 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 3,9 faiz azalmışdır. Mədənçıxarma sənayesində artımın əsas səbəbi xarici investisiyalı müəssisələrdə çalışan əcnəbi işçilərə verilən əmək haqlarının devalvasiya ilə əlaqədar milli valyuta ekvivalentində artmasıdır.

Cədvəl 24

## Sənayenin fəaliyyət növləri üzrə bir işçinin orta aylıq əmək haqqı, manat

| | 2016-cı ilin yanvar-iyun aylarında | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye üzrə - cəmi** | **888,8** | **116,0** |
| **Mədənçıxarma sənayesi** | **2 726,6** | **133,9** |
| **Emal sənayesi** | **510,6** | **105,4** |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 335,5 | 100,0 |
| içki istehsalı | 489,0 | 103,5 |
| tütün məmulatlarının istehsalı | 408,9 | 104,1 |
| toxuculuq sənayesi | 300,3 | 108,3 |
| geyim istehsalı | 394,6 | 103,5 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 496,3 | 100,3 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 487,1 | 100,2 |
| kağız və karton istehsalı | 526,2 | 101,2 |
| poliqrafiya məhsullarının istehsalı | 394,3 | 100,4 |
| neft məhsullarının istehsalı | 848,7 | 101,6 |
| kimya sənayesi | 692,8 | 140,1 |
| əczaçılıq məhsullarının istehsalı | 520,2 | 136,6 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 451,9 | 100,5 |
| tikinti materiallarının istehsalı | 561,3 | 100,5 |
| metallurgiya sənayesi | 613,7 | 102,1 |
| hazır metal məmulatlarının istehsalı | 504,9 | 102,3 |
| kompyuter və elektron məhsullarının istehsalı | 470,7 | 120,4 |
| elektrik avadanlıqlarının istehsalı | 545,8 | 100,5 |
| maşın və avadanlıqların istehsalı | 360,6 | 101,1 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 415,7 | 115,1 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 424,7 | 100,1 |
| mebellərin istehsalı | 351,9 | 100,9 |
| zərgərlik məmulatları, musiqi alətləri və tibb avadanlıqlarının istehsalı | 357,7 | 100,1 |

…ardı

| | 2016-cı ilin yanvar-iyun aylarında | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 976,2 | 118,4 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **495,4** | **99,0** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **324,1** | **96,1** |

## Energetika

2016-cı ilin yanvar-iyun aylarında ölkə daxilində əsas növ neft emalı məhsullarının istehlakı 1,9 milyon ton olmuş və 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,4 faiz artmışdır. Ümumi istehlakın 30,3 faizini avtomobil benzini, 29,5 faizini mazut yanacağı, 22,6 faizini dizel yanacağı, 4,8 faizini aviasiya üçün və sair ağ neft, 4,4 faizini neft-kimya sənayesində istifadə üçün benzin, 4,0 faizini maye qaz, 3,0 faizini neft bitumu, 1,0 faizini sürtkü yağları, 0,4 faizini isə digər neft məhsulları təşkil etmişdir.

Cədvəl 25

### Əsas növ neft emalı məhsullarının istehlakının strukturu

(min ton)

| Göstəricinin adı | 2016-cı ilin yanvar-iyun aylarında | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi:** | **1 912,7** | **111,4** |
| o cümlədən: Avtomobil benzini | 578,8 | 89,0 |
| Dizel yanacağı | 431,7 | 85,1 |
| Mazut yanacağı | 564,3 | 2,6 dəfə |
| Neft-kimya sənayesində istifadə üçün benzin | 84,1 | 77,4 |
| Aviasiya üçün və sair ağ neft | 92,1 | 102,8 |
| Neft bitumu | 57,8 | 85,4 |
| Maye qaz | 76,3 | 164,4 |
| Sürtkü yağları | 19,1 | 86,8 |
| Digər neft məhsulları | 8,5 | 74,6 |

Ölkədə 11,3 milyard kub metr əmtəəlik təbii qaz ehtiyatları olmuş, onun 82,8 faizi hasilatın, 17,2 faizi isə ilin əvvəlinə mövcud olan ehtiyatın hesabına formalaşmışdır. Təbii qaz ehtiyatlarının 42,3 faizi ölkə daxilində istehlak edilmiş, 35,9 faizi ixrac olunmuş, 4,2 faizini itkilər təşkil etmiş, 17,6 faizi isə iyul ayının əvvəlinə ehtiyat kimi qalmışdır.

Cari ilin yanvar-iyun aylarında dövlət büdcəsindən maliyyələşdirilən idarə, müəssisə və təşkilatlar tərəfindən 930,4 milyon kVt.saat elektrik və 115,5 min Q.kalori istilik enerjisindən, 87,4 milyon kub metr təbii qazdan istifadə edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə elektrik enerjisindən 17,7 faiz, istilik enerjisindən 11,0 faiz, təbii qazdan 7,4 faiz çox istifadə edilmişdir.

Cədvəl 26

**Büdcə təşkilatları tərəfindən istehlak edilmiş enerjinin həcmi**

| | 2016-cı ilin yanvar-iyun aylarında | | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə (natura ifadəsində) |
|---|---|---|---|
| | natura ifadəsində | dəyər ifadəsində, milyon manat | |
| Elektrik enerjisi, milyon kVt.saat | 930,4 | 55,8 | 117,7 |
| İstilik enerjisi, min Q.kalori | 115,5 | 3,1 | 111,0 |
| Təbii qaz, milyon kub metr | 87,4 | 8,7 | 107,4 |

Cari ilin yanvar-iyun aylarında ölkənin bütün təsərrüfat subyektləri tərəfindən 9,7 milyard kVt.saat elektrik enerjisi istehlak edilmişdir.

Qrafik 8

## 2016-cı ilin birinci yarımilində elektrik enerjisinin istehlakçı qrupları üzrə strukturu



## Tikinti

### Əsas kapitala yönəldilmiş vəsaitlər

2016-cı ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7959,7 milyon manat vəsait yönəldilmiş, onun 6460,4 milyon manatı və ya 81,1 faizi məhsul istehsalı obyektlərinin, 1175,9 milyon manatı (14,8 faizi) xidmət sahələri üzrə obyektlərin, 323,4 milyon manatı (4,1 faizi) isə ümumi sahəsi 888,7 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Ümumi sərmayənin 27,7 faizi dövlət, 72,3 faizi qeyri-dövlət sektorunun sərmayədarlarının payına düşmüşdür. Əsas kapitala yönəldilmiş vəsaitlərin 70,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 38,1 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayədə müəssisə və təşkilatların vəsaitləri 5840,3 milyon manat, bank kreditləri 752,8,0 milyon manat, büdcə vəsaitləri 1006,2 milyon manat, büdcədənkənar fondların vəsaitləri 79,8 milyon manat, əhalinin şəxsi vəsaitləri 259,4 milyon manat, sair vəsaitlər 21,2 milyon manat təşkil etmişdir.

Cədvəl 27

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2016-cı ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **7 959,7** | **70,3** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 5 840,3 | 68,8 | 73,4 |
| Bank kreditləri | 752,8 | 133,3 | 9,4 |
| Büdcə vəsaitləri | 1 006,2 | 59,4 | 12,6 |
| Büdcədənkənar fondların vəsaitləri | 79,8 | 50,9 | 1,0 |
| Əhalinin şəxsi vəsaiti | 259,4 | 93,2 | 3,3 |
| Sair vəsaitlər | 21,2 | 24,6 | 0,3 |

Qrafik 9

## Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2016-cı ilin yanvar-iyul aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 68,2 faizi sənayeyə, 15,6 faizi tikinti, 8,3 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrinə, 1,9 faizi dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat, 1,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, hər birində 0,9 faiz olmaqla informasiya və rabitə, inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,8 faizi təhsil, hər birində 0,7 faiz olmaqla səhiyyə, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 0,4 faizi ticarət, hər birində 0,1 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, digər sahələrdə xidmətlərin göstərilməsinə sərf edilmişdir.

Cədvəl 28

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri**

| Sahələrin adı | 2016-cı ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **7 959,7** | **70,3** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **112,2** | **48,7** | **1,4** |
| **Sənaye** | **5 428,1** | **82,5** | **68,2** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 5 125,8 | 87,3 | 64,4 |
| Emal sənayesi | 141,1 | 52,0 | 1,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 105,3 | 120,0 | 1,3 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 55,9 | 22,0 | 0,7 |
| **Tikinti** | **1 243,4** | **97,9** | **15,6** |
| ondan yaşayış evlərinin tikintisi | 323,4 | 55,0 | 4,1 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **28,6** | **17,0** | **0,4** |

...ardı

| Sahələrin adı | 2016-cı ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı** | **659,3** | **56,2** | **8,3** |
| o cümlədən: | | | |
| nəqliyyat | 658,9 | 56,3 | 8,3 |
| poçt və kuryer fəaliyyəti | 0,4 | 14,9 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **11,2** | **3,5** | **0,1** |
| **İnformasiya və rabitə** | **71,1** | **41,8** | **0,9** |
| ondan rabitə | 70,7 | 41,8 | 0,9 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **1,1** | **43,9** | **0,0** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **-** | **-** | **-** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **3,6** | **36,9** | **0,0** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **69,4** | **98,3** | **0,9** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **150,5** | **41,7** | **1,9** |
| **Təhsil** | **67,2** | **43,7** | **0,8** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **55,5** | **72,4** | **0,7** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **53,5** | **20,8** | **0,7** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **5,0** | **7,4** | **0,1** |

2016-cı ilin yanvar-iyul aylarında neft sektoruna 5152,1 milyon manatlıq vəsait yönəldilmişdir. Qeyri-neft sektorunun inkişafına sərf edilmiş 2807,6 milyon manatlıq vəsaitin 276,0 milyon manatı (ümumi sərmayənin 3,5 faizi) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.

Cədvəl 29

## Neft və qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | Neft sektoru | | Qeyri-neft sektoru | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| Yanvar | 675,5 | 76,7 | 205,2 | 23,3 |
| Fevral | 716,5 | 75,1 | 237,7 | 24,9 |
| Mart | 858,4 | 82,4 | 183,5 | 17,6 |
| Aprel | 795,0 | 56,2 | 619,5 | 43,8 |
| May | 633,3 | 57,7 | 464,2 | 42,3 |
| İyun | 773,8 | 56,0 | 607,0 | 44,0 |
| İyul | 699,6 | 58,8 | 490,5 | 41,2 |

2016-cı ilin yanvar-iyul aylarında **Bakı şəhərində** iri qabaritli transformatorlar və Yeni Ağdağ gips zavodları, Bakı Metropoliteninin yeni - bənövşəyi xəttinin “Avtovağzal” və “Memar Əcəmi-2” stansiyaları, **Gəncə şəhərində** “Nizami” elektrik yarımstansiyası, **Tovuz rayonunda** Tovuzçay su anbarı, 2478 şagird yerlik 11 ümumtəhsil məktəb binası, 1032 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi, 560 yerlik 4 klub və s. obyektlər istifadəyə verilmişdir.

## Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlər

2016-cı ilin yanvar-iyul aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 4923,1 milyon manat vəsait yönəldilmişdir.

Cədvəl 30

**Daxili və xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitlər**

| | Daxili mənbələr üzrə | | Xarici mənbələr üzrə | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| Yanvar | 251,3 | 28,5 | 629,4 | 71,5 |
| Fevral | 342,5 | 35,9 | 611,7 | 64,1 |
| Mart | 307,1 | 29,5 | 734,8 | 70,5 |
| Aprel | 479,4 | 33,9 | 935,1 | 66,1 |
| May | 553,4 | 50,4 | 544,1 | 49,6 |
| İyun | 578,5 | 41,9 | 802,3 | 58,1 |
| İyul | 524,4 | 44,1 | 665,7 | 55,9 |

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 4328,5 milyon manatı (87,9 faizi) Birləşmiş Krallıq, Türkiyə, Malayziya, İsveçrə, Rusiya, İran, ABŞ və Yaponiya sərmayədarlarına məxsus olmuşdur.

Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 68,5 faizini tikinti, yenidənqurma və genişləndirmə, 11,8 faizini əsaslı təmir, 3,9 faizini cari təmir, 15,8 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 88,1 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 10

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)




2016-cı ilin yanvar-iyun aylarında inşaat sektorunda işçilərin orta siyahı sayı 95,6 min nəfər olmuş, orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 20,6 faiz artaraq 803,9 manat təşkil etmişdir. İxtisaslaşdırılmış tikinti işlərində işləyənlərin əmək haqqı 25,6 faiz, binaların tikintisində işləyənlərin əmək haqqı 13,2 faiz, mülki təyinatlı inşaat işlərində işləyənlərin əmək haqqı isə 5,6 faiz artmışdır.

Cədvəl 31

**Tikintidə fəaliyyət növləri üzrə işçilərin orta aylıq əmək haqqı**

| | Bir işçinin orta aylıq əmək haqqı | |
|---|---|---|
| | 2016-cı ilin yanvar-iyun aylarında, manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **Cəmi** | **803,9** | **120,6** |
| o cümlədən:<br>Dövlət sektoru | 519,5 | 107,9 |
| Qeyri-dövlət sektoru | 913,9 | 124,6 |
| Ümumi yekundan fəaliyyət növləri üzrə:<br>**Binaların tikintisi** | **608,0** | **113,2** |
| **Mülki təyinatlı inşaat işləri** | **531,9** | **105,6** |
| **İxtisaslaşdırılmış tikinti işləri** | **1 500,4** | **125,6** |

# Kənd təsərrüfatı

2016-cı ilin yanvar-iyul aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3290,4 milyon manat təşkil etmişdir ki, onun da 1677,7 milyon manatı heyvandarlıq, 1612,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşmüşdür.

Qrafik 11

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulu istehsalı 2,6 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 2,5 faiz, heyvandarlıq məhsulları üzrə 2,8 faiz artmışdır.

Cədvəl 32

## Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən: | |
| | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları |
| **2015-ci il** | | | |
| Yanvar | 103,5 | 103,8 | 103,5 |
| Yanvar-fevral | 103,1 | 103,5 | 103,1 |
| Yanvar-mart | 103,4 | 105,9 | 103,3 |
| Yanvar-aprel | 103,7 | 108,4 | 103,5 |
| Yanvar-may | 104,1 | 112,2 | 103,3 |
| Yanvar-iyun | 107,3 | 114,0 | 102,6 |
| Yanvar-iyul | 108,9 | 115,8 | 102,4 |
| Yanvar-avqust | 107,4 | 112,3 | 102,2 |
| Yanvar-sentyabr | 106,7 | 110,4 | 102,5 |
| Yanvar-oktyabr | 106,7 | 110,7 | 102,4 |
| Yanvar-noyabr | 106,7 | 110,8 | 102,5 |
| Yanvar-dekabr | 106,6 | 111,3 | 102,5 |
| **2016-cı il** | | | |
| Yanvar | 101,8 | 104,7 | 101,7 |
| Yanvar-fevral | 102,6 | 104,5 | 102,6 |
| Yanvar-mart | 102,7 | 109,2 | 102,5 |
| Yanvar-aprel | 103,5 | 112,3 | 103,1 |
| Yanvar-may | 105,8 | 124,0 | 103,3 |
| Yanvar-iyun | 103,1 | 102,4 | 103,8 |
| Yanvar-iyul | 102,6 | 102,5 | 102,8 |

**Bitkiçilik.** Cari il iyunun 1-i vəziyyətinə əkin sahələrinin qəti uçotu keçirilmişdir.

Cədvəl 33

**Əkin sahələrinin qəti uçotunun yekunları, min hektar**

| | 2016-cı il | 2015-ci il | 2016-cı il 2015-ci ilə nisbətən, % |
|---|---|---|---|
| **Dənli və dənli paxlalılar – cəmi** | **997,5** | **952,1** | **104,8** |
| ondan: payızlıq və yazlıq buğda | 590,7 | 539,7 | 109,4 |
| payızlıq və yazlıq arpa | 352,4 | 361,0 | 97,6 |
| dən üçün qarğıdalı | 36,0 | 36,9 | 97,5 |
| paxlalılar cəmi | 10,7 | 11,0 | 97,4 |
| **Texniki bitkilər – cəmi** | **73,4** | **38,7** | **189,7** |
| ondan: pambıq | 51,5 | 18,7 | 2,8 dəfə |
| tütün | 2,4 | 1,4 | 173,4 |
| dən üçün günəbaxan | 8,2 | 10,7 | 77,1 |
| şəkər çuğunduru | 7,1 | 4,9 | 143,5 |
| **Kartof, tərəvəz və bostan bitkiləri – cəmi** | **163,0** | **166,0** | **98,2** |
| ondan: kartof | 62,8 | 61,0 | 103,0 |
| tərəvəz | 73,6 | 77,1 | 95,3 |
| bostan | 26,4 | 27,9 | 94,9 |
| **Yem bitkiləri – cəmi** | **395,0** | **428,6** | **92,2** |
| ondan: silos və yaşıl yem üçün qarğıdalı | 1,4 | 1,8 | 78,2 |
| birillik otlar | 7,9 | 9,7 | 80,8 |
| cari ilin çoxillik otları | 73,7 | 87,7 | 84,1 |
| keçmiş illərin çoxillik otları | 311,8 | 329,3 | 94,7 |
| yemlik kökümeyvəlilər | 0,2 | 0,1 | 161,8 |
| **Cəmi əkin sahəsi** | **1 628,9** | **1 585,4** | **102,7** |

Hesabat məlumatlarına əsasən 2016-cı ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil edilməklə, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 1628,9 min hektar olmuş və keçən illə müqayisədə 43,5 min hektar və

yaxud 2,7 faiz artmışdır. Bu artım kənd təsərrüfatı müəssisələri üzrə 9,2 faiz, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə 2,3 faiz olmuşdur.

Dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin əsas hissəsini payızlıq dənli bitkilər təşkil edir. Belə ki, keçən ilin payızında dən və yaşıl yem üçün əkilmiş 948,9 min hektar sahədən 937,4 min hektar payızlıq dənli bitkilər cari ilin yaz əkini dövrünün sonunadək salamat qalmışdır ki, bu da ümumi dənli və dənli paxlalı bitkilərin əkin sahəsinin 94,0 faizinə bərabərdir. Havaların əlverişsiz keçməsi səbəbindən payızlıq dənli bitkilərin 3,0 min hektarı tamamilə məhv olmuş, 4,4 min hektarı yem üçün istifadə edildikdən sonra yerinə yazlıq bitkilər əkilmiş, 4,1 min hektarı isə yem üçün saxlanmışdır.

Ölkə üzrə əkin sahəsinin 997,5 min hektarını və yaxud 61,2 faizini dənli və dənli paxlalı bitkilərin, 73,4 min hektarını (4,5 faiz) texniki bitkilərin, 163,0 min hektarını (10,0 faiz) kartof, tərəvəz və bostan bitkilərinin, 395,0 min hektarını (24,3 faiz) yemlik bitkilərin əkin sahələri təşkil etmişdir.

Qrafik 12

**Əkin sahəsinin strukturu, yekuna nisbətən**



Respublikada kənd təsərrüfatı məhsullarının yığımı davam edir və avqust ayının 1-nə kimi payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 98,2 faizi, yaxud 944,2 min hektarı biçilmiş və həmin sahələrdən 2802,1 min ton məhsul götürülmüşdür. Orta hesabla hər hektardan əldə edilmiş məhsul 29,7 sentner təşkil etmişdir. Bundan əlavə, məhsulu toplanmış 3,6 min hektar qarğıdalı sahəsindən 13,9 min ton məhsul götürülmüşdür.

Yığım başlanandan sahələrdən 577,2 min ton (70,4 min ton çox) kartof, 732,7 min ton (32,7 min ton az) tərəvəz, 343,2 min ton (13,2 min ton az) bostan məhsulları, 180,1 min ton (0,4 min ton çox) meyvə və giləmeyvə, 3522 ton (321 ton çox) üzüm, 608,1 ton (244,5 ton çox) yaşıl çay yarpağı, 1616 ton (169 ton çox) günəbaxan, 2057 ton (561 ton çox) tütün yığılmışdır.

Cədvəl 34

**Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı**

| | **2016-cı il yanvar-iyul** | | | | **2015-ci il yanvar-iyul** | | |
|---|---|---|---|---|---|---|---|
| | **Yığılmış sahə, min hektar** | **Yığılmış sahə əkin sahəsinə %-lə** | **Yığılmış məhsul, min ton** | **Məhsul-darlıq, sent/ha** | **Yığılmış sahə, min hektar** | **Yığılmış məhsul, min ton** | **Məhsul-darlıq, sent/ha** |
| Dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) | 944,2 | 98,2 | 2 802,1 | 29,7 | 909,1 | 2 768,5 | 30,5 |
| Dən üçün qarğıdalı | 3,6 | 9,9 | 13,9 | 39,2 | 3,9 | 14,8 | 37,6 |
| Dənli və dənli paxlalı bitkilər-cəmi | 947,8 | 95,0 | 2 816,0 | 29,7 | 913,0 | 2 783,3 | 30,5 |
| Dən üçün günəbaxan, ton | 0,9 | 10,7 | 1 616 | 18,3 | 0,9 | 1 447 | 16,1 |
| Tütün, ton | 2,4[x)] | | 2 057 | | 1,4[x)] | 1 496 | |
| Kartof | 37,5 | 59,7 | 577,2 | 154 | 35,2 | 506,8 | 144 |
| Tərəvəz | 53,4 | 72,5 | 732,7 | 137 | 56,6 | 765,4 | 135 |

…ardı

| | 2016-cı il yanvar-iyul | | | | 2015-ci il yanvar-iyul | | |
|---|---|---|---|---|---|---|---|
| | Yığılmış sahə, min hektar | Yığılmış sahə əkin sahəsinə %-lə | Yığılmış məhsul, min ton | Məhsul-darlıq, sent/ha | Yığılmış sahə, min hektar | Yığılmış məhsul, min ton | Məhsul-darlıq, sent/ha |
| Bostan məhsulları | 20,9 | 79,1 | 343,2 | 164 | 22,0 | 356,4 | 162 |
| Meyvə və giləmeyvə | - | - | 180,1 | - | - | 179,7 | - |
| Üzüm, ton | - | - | 3 522 | - | - | 3 201 | - |
| Yaşıl çay yarpağı, ton | - | - | 608,1 | - | - | 363,6 | - |

x) əkin sahəsi

**Heyvandarlıq.** 2016-cı ilin yeddi ayı ərzində ölkə üzrə diri çəkidə 263,6 min ton ət, 1168,8 min ton süd, 947,8 milyon ədəd yumurta və 15,9 min ton yun istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,6 faiz, süd istehsalı 2,1 faiz, yumurta istehsalı 5,5 faiz və yun istehsalı 1,6 faiz artmışdır.

Bundan başqa, ölkə üzrə 70,7 ton barama istehsal olunmuşdur.

Cədvəl 35

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı, min ton**

| | Ət (diri çəkidə) | Süd | Yumurta, milyon ədəd | Yun |
|---|---|---|---|---|
| **2015-ci il** | | | | |
| Yanvar | 36,6 | 143,0 | 135,2 | - |
| Yanvar-fevral | 72,3 | 279,4 | 258,7 | - |
| Yanvar-mart | 109,8 | 427,1 | 390,1 | - |
| Yanvar-aprel | 148,0 | 599,0 | 515,8 | 2,8 |
| Yanvar-may | 178,9 | 786,1 | 658,8 | 12,9 |
| Yanvar-iyun | 225,1 | 963,7 | 779,4 | 15,3 |
| Yanvar-iyul | 256,9 | 1 144,8 | 898,0 | 15,6 |

…ardı

| | Ət (diri çəkidə) | Süd | Yumurta, milyon ədəd | Yun |
|---|---|---|---|---|
| Yanvar-avqust | 298,1 | 1 302,3 | 1 019,4 | 16,0 |
| Yanvar-sentyabr | 331,4 | 1 469,5 | 1 157,4 | 16,5 |
| Yanvar-oktyabr | 385,1 | 1 625,8 | 1 290,0 | 16,8 |
| Yanvar-noyabr | 428,7 | 1 777,0 | 1 402,6 | 16,8 |
| Yanvar-dekabr | 515,6 | 1 924,5 | 1 552,9 | 17,0 |
| **2016-cı il** | | | | |
| Yanvar | 36,8 | 147,3 | 141,3 | - |
| Yanvar-fevral | 73,4 | 290,1 | 270,9 | - |
| Yanvar-mart | 111,8 | 440,9 | 407,0 | - |
| Yanvar-aprel | 151,0 | 622,4 | 542,8 | 2,9 |
| Yanvar-may | 183,6 | 813,8 | 694,6 | 13,1 |
| Yanvar-iyun | 231,1 | 1 010,7 | 821,9 | 15,9 |
| Yanvar-iyul | 263,6 | 1 168,8 | 947,8 | 15,9 |

**Kənd təsərrüfatı texnikası ilə təchizat.** Kənd təsərrüfatı məhsulları istehsalçılarının zəruri kənd təsərrüfatı texnikası ilə təchizatı yüksək rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalında mühüm rol oynadığından bu məsələ ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

2016-cı ilin birinci yarısında "Aqrolizinq" ASC-nin xətti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına 22,5 milyon manat dəyərində 296 ədəd müxtəlif növ traktor, 121 ədəd taxılyığan kombayn, 106 ədəd kotan, 35 ədəd gübrəsəpən maşın, 31 ədəd ot dırmığı, 30 ədəd çiləyici və tozlayıcılar, 19 ədəd bağarası frez, 15 ədəd kultivator, 13 ədəd səpici aqreqat, 13 ədəd ot və küləş presləyən, 12 ədəd mala, 8 ədəd otbiçən, 6 ədəd taxıl toxumu təmizləyən və 30 ədəd digər kənd təsərrüfatı maşın və avadanlıqları satılmış və verilmişdir.

**Meşə təsərrüfatı.** Ölkədə meşə sahələrinin seyrəkləşməsi və azalmasının qarşısının alınması, bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə meşə təsərrüfatları tərəfindən müəyyən işlər görülür. Cari ilin yanvar-iyun aylarında tədarük edilmiş ağac və kol toxumlarının 81,6 faizi enliyarpaqlı, 18,4 faizi iynəyarpaqlı ağac toxumları olmuşdur. Enliyarpaqlı ağac toxumlarının 9,8 faizini qozmeyvəli ağacların toxumu,

37,0 faizini palıd toxumu, 53,2 faizini isə digər enliyarpaqlı ağac və kol toxumları təşkil etmişdir.

Cədvəl 36

**Meşəbərpa tədbirlərinin aparılması, hektar**

| | **2016-cı ilin yanvar-iyun ayları** | **2015-ci ilin yanvar-iyun ayları** | **2016-cı ilin yanvar-iyun ayları 2015-ci ilin yanvar-iyun aylarına nisbətən, %-lə** |
|---|---|---|---|
| Meşə fondu torpaqlarında meşəbərpa tədbirləri | 1 133 | 1 156 | 98,0 |
| Meşə fondu torpaqlarında meşə əkini və səpinlərinə xidmət (birdəfəlik) | 16 478 | 16 027 | 102,8 |
| Meşə fondu torpaqlarında meşə əkini və səpinlərinin suvarılması (birdəfəlik) | 15849 | 14 110 | 112.3 |
| Tinglik sahəsində xidmətlərin aparılması | 776,9 | 660,9 | 117,6 |
| Səpin sahəsində ağac və kol toxumlarının səpilməsi | 43,7 | 38,5 | 113,5 |
| Meşə fondu torpaqlarında torpaq hazırlığı | 1170 | 1229 | 95,2 |
| Ağac və kol cinslərinin tədarükü, kq | 8342 | 6 109 | 136,6 |

**Balıqçılıq.** 2016-cı ilin birinci yarısında vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 1,3 milyon manat və ya 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,7 faiz çox vəsait sərf olunmuşdur. Bu vəsaitin 91,3 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 8,7 faizi isə balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənmişdir.

Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 329,1 milyon ədəd balıq körpələrinin 315,5 milyon ədədi çəkikimilər, 8,0 milyon ədədi nərəkimilər, 5,5 milyon ədədi bitki ilə qidalanan balıqlar, 0,1 milyon ədədi isə qızıl balıqlar olmuşdur.

# Nəqliyyat

2016-cı ilin yanvar-iyul ayları ərzində nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 123,6 milyon ton yük daşınmış və 2015-ci ilin müvafiq dövrünə nisbətən 2,1 faiz azalma müşahidə olunmuşdur. Yüklərin 2,4 faizi dəniz, 6,7 faizi dəmir yolu, 0,1 faizi hava, 62,4 faizi avtomobil nəqliyyatı, 28,4 faizi isə boru kəməri ilə daşınmışdır. Qeyri-neft yüklərinin həcmi 1,2 faiz artaraq 90,6 milyon ton təşkil etmişdir.

Qrafik 13

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, faizlə**




Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 1,7 faiz artmış, daşınmış ümumi yüklərin həcmində onların xüsusi çəkisi 82,2 faiz təşkil etmişdir.

2016-cı ilin yanvar-iyul aylarında nəqliyyatçılar 1061,4 milyon nəfərə və ya 2015-ci ilin eyni dövrü ilə müqayisədə 1,9 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88,0 faizi avtomobil nəqliyyatı, 11,8 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2016-cı ilin yanvar-iyul ayları ərzində 8,3 milyon ton yük, 1058,4 min sərnişin daşınmış, 2015-ci ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 18,6 faiz, sərnişin daşınmasında isə 8,1 faiz azalma müşahidə olunmuşdur.

Orta hesabla sutkada 430 vaqon yüklənmiş, 395 vaqon isə boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 17,5 min ton, Qərb istiqaməti üzrə 4,7 min ton, Cənub istiqaməti üzrə isə 1,7 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatı** ilə 2016-cı ilin yanvar-iyul aylarında daşınmış yüklərin həcmi 3020,1 min ton təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,1 faiz azalmışdır. Yüklərin 44,9 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 4400,1 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 4067,8 min tonunu və ya 92,4 faizini tranzit yüklər təşkil etmişdir. 2016-cı il avqust ayının 1-i vəziyyətinə limanlarda qalan idxal yüklərin həcmi 39,5 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2015-ci ilin müvafiq dövrünə nisbətən 2,2 dəfə artaraq 9,7 min nəfər olmuşdur.

Qrafik 14

**Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi, min ton**



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 77,2 milyon ton yük, 933,9 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,8 faiz və 2,5 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,1 faizi avtobus, 3,9 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 2,8 faiz, sərnişin dövriyyəsi isə 2,5 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 2,6 faiz azalaraq 125,3 milyon nəfər olmuşdur.

**Hava nəqliyyatı** ilə 1059,4 min və ya 5,4 faiz çox sərnişin daşınmış, daşımaların 99,8 faizi dövlət, 0,2 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 21,1 faiz artaraq 85,1 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 26400,0 min ton neft nəql edilmişdir. Nəqletmənin 78,0 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-iyul ayları ərzində bu kəmər vasitəsilə 20596,4 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə 2,8 milyon ton tranzit nefti də nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 12036,9 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,5 faiz azalma müşahidə olunmuşdur. Qazın nəqlinin 34,5 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4157,5 milyon kub-metr qaz ötürülmüşdür.

2016-cı ilin yanvar-iyun aylarında **Avropa-Qafqaz-Asiya** nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 23884,0 min ton, yük dövriyyəsi isə 4592,0 milyon ton-km olmuşdur. Yüklərin 15178,8 min tonu və ya 63,6 faizi avtomobil nəqliyyatı, 6472,6 min tonu və ya 27,1 faizi dəmir yolu nəqliyyatı, 2232,6 min tonu və ya 9,3 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 14,9 faizini və ya 3567,6 min tonunu tranzit yüklər təşkil etmişdir.

# İnformasiya və rabitə

2016-cı ilin yanvar-iyul ayları ərzində **informasiya və rabitə müəssisələri** 955,7 milyon manatlıq xidmət göstərmişdir ki, onun da 72,1 faizi əhali tərəfindən istehlak olunmuşdur. 2015-ci ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 12,5 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xidmətlərdən əldə edilən gəlirin 48,9 faizi və ya 467,2 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

# İstehlak bazarı

2016-cı ilin yanvar-iyul aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədi ilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 20,8 milyard manat olmaqla 2015-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 1,8 faiz artmışdır.

Hesabat dövründə qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri əvvəlki ilin yanvar-iyul aylarının səviyyəsini real ifadədə 2,1 faiz üstələyərək 19,9 milyard manata bərabər olmuşdur.

Cədvəl 37

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2016-cı ilin yanvar-iyul ayları, milyon manat | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **20 833,8** | **101,8** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 905,8 | 97,3 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 19 928,0 | 102,1 |

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 309,6 manatlıq və ya 2015-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 33,7 manat çox əmtəə almış və ödənişli xidmətlərdən istifadə etmişdir.

## Məhsul bazarı

2016-cı ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsi 2015-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,0 faiz artaraq 16,2 milyard manat olmuşdur.

İstehlak məhsullarının 99,9 faizi qeyri-dövlət təsərrüfat subyektləri, o cümlədən 11,3 faizi hüquqi şəxs statuslu müəssisələr tərəfindən satılmışdır.

Cədvəl 38

**Məhsul bazarı üzrə əsas göstəricilər**

| | 2016-cı ilin yanvar-iyul ayları, milyon manat | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **16 169,5** | **102,0** |
| o cümlədən: hüquqi şəxslər üzrə | 1 848,9 | 101,9 |
| fərdi sahibkarlar üzrə | 8 608,0 | 103,0 |
| bazar və yarmarkalar üzrə | 5 712,6 | 100,5 |

Qrafik 15

**2016-cı ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu**



Hesabat dövründə pərakəndə ticarət şəbəkəsindən bir istehlakçı orta hesabla ayda 240,3 manatlıq və ya 2015-ci ilin eyni göstəricisi ilə müqayisədə 30,2 manat çox əmtəə almışdır.

Qrafik 16

**Pərakəndə ticarət şəbəkəsində istehlak məhsullarının satışı və qiymət indeksinin dinamikası**

(əvvəlki aya nisbətən, faizlə)




Cədvəl 39

**Pərakəndə ticarət dövriyyəsinin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | o cümlədən: qeyri-ərzaq məhsulları üzrə |
| **2015-ci il** | | | |
| Yanvar | 109,4 | 101,9 | 118,2 |
| Yanvar-fevral | 108,5 | 101,6 | 116,8 |
| Yanvar-mart | 109,6 | 103,2 | 117,4 |
| Yanvar-aprel | 109,6 | 104,8 | 115,4 |
| Yanvar-may | 109,7 | 106,3 | 114,0 |
| Yanvar-iyun | 113,4 | 109,6 | 118,4 |
| Yanvar-iyul | 112,5 | 109,8 | 116,6 |
| Yanvar-avqust | 111,3 | 109,4 | 114,4 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq məhsulları üzrə |
| Yanvar-sentyabr | 111,4 | 110,0 | 113,8 |
| Yanvar-oktyabr | 111,2 | 110,0 | 113,4 |
| Yanvar-noyabr | 111,1 | 109,6 | 113,5 |
| Yanvar-dekabr | 110,9 | 110,1 | 112,8 |
| **2016-cı il** | | | |
| Yanvar | 104,3 | 104,1 | 105,2 |
| Yanvar-fevral | 104,2 | 105,5 | 103,0 |
| Yanvar-mart | 103,4 | 104,8 | 101,9 |
| Yanvar-aprel | 102,7 | 103,6 | 101,4 |
| Yanvar-may | 101,9 | 102,5 | 100,7 |
| Yanvar-iyun | 101,9 | 102,4 | 100,7 |
| Yanvar-iyul | 102,0 | 102,8 | 100,6 |

2016-cı ilin yanvar-iyul aylarında pərakəndə şəbəkədə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri 2015-ci ilin eyni dövrünün səviyyəsini real ifadədə 2,8 faiz üstələyərək 7997,8 milyon manata çatmışdır. Ticarət dövriyyəsi 8171,7 milyon manat təşkil edən qeyri-ərzaq məhsulları üzrə satış isə 2015-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 0,6 faiz çox olmuşdur.

Cədvəl 40

## Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu

| | 2016-cı ilin yanvar-iyul ayları, milyon manat | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **16 169,5** | **100,0** | **102,0** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 7 997,8 | 49,5 | 102,8 |
| qeyri-ərzaq məhsulları | 8 171,7 | 50,5 | 100,6 |

Hesabat dövründə bir istehlakçı pərakəndə ticarət şəbəkəsindən orta hesabla ayda 118,9 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 121,4 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

Cədvəl 41

## 2016-cı ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu

| | Satışdan gəlir, milyon manat | 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **16 169,5** | **102,0** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 7 997,8 | 102,8 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 2 811,9 | 101,4 |
| elektrik malları və mebel | 1 043,2 | 100,3 |
| kompyuterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 130,5 | 100,5 |
| əczaçılıq və tibbi mallar | 230,6 | 101,8 |
| avtomobil yanacağı | 914,3 | 101,2 |
| digər qeyri-ərzaq məhsulları | 3 041,2 | 99,5 |

2016-cı ilin yanvar-iyul aylarında istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 49,5 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 17,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,4 faizi elektrik malları və mebelin, 5,7 faizi avtomobil yanacağının, 1,4 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompyuterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,8 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Pərakəndə ticarət dövriyyəsinin artımı ölkənin əksər regionlarında müşahidə olunmuşdur. Belə ki, 2015-ci ilin eyni dövrü ilə müqayisədə 2016-cı ilin birinci yarısında pərakəndə ticarət dövriyyəsinin həcmi Bakı şəhəri üzrə 1,7 faiz, Naxçıvan Muxtar Respublikası üzrə 2,7 faiz, Gəncə-Qazax iqtisadi rayonu üzrə 2,2 faiz, Aran iqtisadi rayonu üzrə 2,2 faiz, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 2,1 faiz, Abşeron iqtisadi rayonu üzrə 1,8 faiz, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 1,7 faiz, Lənkəran iqtisadi rayonu üzrə 1,5 faiz, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 1,2 faiz artmış, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə isə 0,1 faiz azalmışdır. Naxçıvan, Şəki, Yevlax, Mingəçevir şəhərləri, Şərur, Babək, Ordubad, Kəngərli, Şahbuz, Sədərək, Abşeron, Tovuz, Şəmkir, Gədəbəy, Samux, Göygöl, Zaqatala, Qax, Oğuz, Lerik, Masallı, Qusar, Beyləqan, Ağcabədi, Bərdə, Salyan, Ucar, İmişli və Qobustan rayonları üzrə pərakəndə ticarət dövriyyəsinin artım sürəti ölkə üzrə orta artım sürətindən (1,9 faiz) yüksək olmuşdur.

Qrafik 17

**2016-cı ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturu,** yekuna nisbətən faizlə




2016-cı ilin yanvar-iyul aylarında elektron qaydada pərakəndə ticarət şəbəkəsində 8,3 milyon manatlıq və ya 2015-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,1 faiz çox istehlak məhsulları satılmışdır. Elektron şəbəkə vasitəsi ilə qeyri-ərzaq məhsullarının satışı əvvəlki ilin yanvar-iyul aylarının səviyyəsini real ifadədə 0,3 faiz üstələyərək 8,1 milyon manata bərabər olmuşdur.

## İctimai iaşə xidmətləri

2016-cı ilin yanvar-iyul ayları ərzində ictimai iaşə dövriyyəsi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,0 faiz artaraq 627,7 milyon manat olmuşdur.

Cədvəl 42

**İctimai iaşə dövriyyəsi**

| | 2016-cı ilin yanvar-iyul ayları, min manat | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi** | **627 655,9** | **103,0** |
| o cümlədən:<br>dövlət | 8 637,7 | 94,5 |
| qeyri-dövlət | 619 018,2 | 103,1 |
| ondan:<br>fiziki şəxslər | 361901,9 | 103,8 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 41,5 faizi hüquqi şəxs statuslu müəssisələrin, 58,5 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyə 2015-ci ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz artaraq 257,1 milyon manat təşkil etmişdir.

## Əhaliyə göstərilən ödənişli xidmətlər

2016-cı ilin yanvar-iyul ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2015-ci ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz artaraq 4036,7 milyon manat olmuşdur. Artımın 51,0 faizini hüquqi şəxslər təmin etmiş və onlar tərəfindən əhaliyə 2978,8 milyon manatlıq xidmət göstərilmişdir. Bu, ötən ilin müvafiq dövrünün göstəricisini 0,7 faiz üstələmişdir.

Cədvəl 43

**Ödənişli xidmətlərin göstərilməsi**

| | 2016-cı ilin yanvar-iyul aylarında, milyon manat | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri - cəmi** | **4 036,7** | **101,1** |
| dövlət | 873,5 | 97,6 |
| qeyri-dövlət | 3 163,2 | 102,1 |
| ondan: fiziki şəxslər | 1 057,9 | 102,0 |

Cari ilin yanvar-iyul ayları ərzində hər bir ölkə sakini orta hesabla 419,9 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,5 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Cədvəl 44

## Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| **2015-ci il** | | | |
| Yanvar | 105,5 | 104,8 | 107,6 |
| Yanvar-fevral | 105,1 | 104,6 | 106,5 |
| Yanvar-mart | 105,3 | 104,4 | 108,0 |
| Yanvar-aprel | 105,2 | 104,1 | 108,5 |
| Yanvar-may | 105,4 | 104,0 | 109,6 |
| Yanvar-iyun | 106,0 | 104,4 | 110,9 |
| Yanvar-iyul | 106,7 | 104,9 | 112,1 |
| Yanvar-avqust | 106,2 | 104,7 | 110,7 |
| Yanvar-sentyabr | 106,2 | 104,6 | 110,9 |
| Yanvar-oktyabr | 105,8 | 104,3 | 110,3 |
| Yanvar-noyabr | 105,4 | 104,0 | 109,3 |
| Yanvar-dekabr | 105,1 | 103,9 | 108,4 |
| **2016-cı il** | | | |
| Yanvar | 103,6 | 103,1 | 105,1 |
| Yanvar-fevral | 102,3 | 101,8 | 103,8 |
| Yanvar-mart | 102,4 | 102,2 | 102,9 |
| Yanvar-aprel | 101,7 | 101,6 | 102,1 |
| Yanvar-may | 101,4 | 101,2 | 101,9 |
| Yanvar-iyun | 101,2 | 100,9 | 102,1 |
| Yanvar-iyul | 101,1 | 100,7 | 102,1 |

Qrafik 18

**Əhaliyə göstərilən ödənişli xidmətlər üzrə**
**qiymət və fiziki həcm indeksləri**
(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət indeksləri

Cədvəl 45

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| İstehlak qiymətləri indeksi | 99,7 | 110,6 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 96,8 | 108,9 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 99,7 | 92,4 |
| Nəqliyyat xidmətlərinin qiymət indeksi | 102,3 | 125,6 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 100,0 | 101,7 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,0 | 90,6 |

Qrafik 19

## İstehlak və istehsalçı qiymət indeksləri, faizlə



Qrafik 20

**İstehlak məhsullarının və xidmətlərin qiymət indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




# İstehlak məhsullarının və xidmətlərin qiymətləri

2016-cı ilin iyul ayında istehlak məhsullarının və xidmətlərin qiymətləri iyun ayına nisbətən 0,3 faiz ucuzlaşmış, yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 10,6 faiz bahalaşmışdır.

Cədvəl 46

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2015-ci il** | | | | |
| Yanvar | 100,2 | 100,2 | 100,4 | 99,6 |
| Fevral | 104,0 | 102,0 | 106,6 | 102,5 |
| Mart | 100,9 | 102,8 | 101,8 | 103,9 |
| **I rüb** | **103,6** | **102,8** | **106,3** | **103,9** |
| Aprel | 99,8 | 103,1 | 100,5 | 104,6 |
| May | 99,4 | 103,4 | 98,5 | 105,2 |
| İyun | 98,9 | 103,5 | 97,3 | 105,5 |
| **II rüb** | **100,9** | **104,2** | **101,8** | **107,2** |
| İyul | 99,3 | 103,7 | 98,3 | 105,8 |
| Avqust | 99,9 | 103,8 | 99,7 | 106,0 |

...ardı

| | Cəmi məhsullar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Sentyabr | 100,3 | 103,7 | 100,6 | 106,0 |
| **III rüb** | **98,3** | **104,1** | **96,0** | **106,9** |
| Oktyabr | 100,1 | 103,7 | 100,3 | 105,9 |
| Noyabr | 100,4 | 103,7 | 100,9 | 105,9 |
| Dekabr | 104,4 | 104,0 | 104,5 | 106,1 |
| **IV rüb** | **102,0** | **104,9** | **102,7** | **106,7** |
| **2016-cı il** | | | | |
| Yanvar | 105,8 | 113,6 | 108,7 | 118,3 |
| Fevral | 100,4 | 111,7 | 100,6 | 114,8 |
| Mart | 100,4 | 110,8 | 100,3 | 113,1 |
| **I rüb** | **109,4** | **110,8** | **112,8** | **113,1** |
| Aprel | 100,2 | 110,5 | 100,1 | 112,2 |
| May | 99,9 | 110,4 | 99,3 | 111,9 |
| İyun | 99,5 | 110,5 | 98,7 | 111,9 |
| **II rüb** | **100,4** | **110,2** | **99,6** | **110,8** |
| İyul | 99,7 | 110,6 | 98,4 | 112,0 |

| | Qeyri-ərzaq məhsulları | | Xidmətlər | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2015-ci il** | | | | |
| Yanvar | 100,0 | 100,2 | 100,0 | 100,8 |
| Fevral | 103,1 | 101,7 | 101,2 | 101,4 |
| Mart | 100,5 | 102,4 | 100,1 | 101,6 |
| **I rüb** | **102,2** | **102,4** | **101,0** | **101,6** |
| Aprel | 99,5 | 102,6 | 99,1 | 101,5 |
| May | 100,2 | 102,7 | 100,1 | 101,4 |
| İyun | 100,0 | 102,8 | 100,0 | 101,3 |
| **II rüb** | **101,0** | **103,3** | **99,6** | **101,0** |
| İyul | 100,0 | 102,9 | 100,0 | 101,2 |
| Avqust | 100,1 | 103,0 | 99,9 | 101,2 |
| Sentyabr | 100,1 | 103,0 | 100,0 | 101,1 |
| **III rüb** | **100,2** | **103,5** | **100,0** | **100,7** |
| Oktyabr | 100,1 | 103,1 | 100,0 | 101,1 |
| Noyabr | 100,0 | 103,1 | 100,0 | 101,0 |

...sonu

| | Qeyri-ərzaq məhsulları | | Xidmətlər | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Dekabr | 107,1 | 103,8 | 101,9 | 101,2 |
| **IV rüb** | **102,5** | **106,1** | **100,7** | **101,3** |
| **2016-cı il** | | | | |
| Yanvar | 105,6 | 117,2 | 102,1 | 104,6 |
| Fevral | 100,6 | 115,7 | 100,1 | 104,0 |
| Mart | 100,5 | 115,2 | 100,5 | 104,0 |
| **I rüb** | **111,0** | **115,2** | **103,7** | **104,0** |
| Aprel | 100,5 | 115,2 | 100,0 | 104,2 |
| May | 100,3 | 115,3 | 100,2 | 104,4 |
| İyun | 100,3 | 115,4 | 100,0 | 104,5 |
| **II rüb** | **101,4** | **115,6** | **100,5** | **105,0** |
| İyul | 100,2 | 115,5 | 101,0 | 104,7 |

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə 112,1 faiz təşkil etmişdir.

Qrafik 21

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi** (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



2016-cı ilin iyul ayında ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri iyun ayına nisbətən 1,6 faiz ucuzlaşmış, yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 12,0 faiz bahalaşmışdır.

Cədvəl 47

**Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymət indeksləri**

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2015-ci ilin yanvar-iyul ayları 2014-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Çörək məmulatları və yarmalar | 100,1 | 115,9 | 109,7 |
| Ət məhsulları | 100,5 | 104,6 | 100,4 |
| Balıq məhsulları | 99,9 | 112,2 | 100,9 |
| Süd məhsulları, pendir və yumurta | 99,9 | 111,2 | 104,7 |
| Yağ və piylər | 100,2 | 125,0 | 112,1 |
| Meyvələr | 96,8 | 106,9 | 111,0 |
| Tərəvəzlər | 91,4 | 101,4 | 95,4 |
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,4 | 117,2 | 105,1 |
| Digər kateqoriyalara aid edilməyən ərzaq məhsulları | 100,5 | 120,7 | 106,7 |
| Kofe, çay, kakao | 100,4 | 129,3 | 109,6 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,1 | 124,6 | 103,1 |
| Araq, brendi (konyak) | 100,0 | 115,6 | 107,3 |
| Tütün məmulatları | 96,2 | 160,4 | 159,7 |

2016-cı ilin iyul ayında qeyri-ərzaq məhsullarının qiymətləri iyun ayına nisbətən 0,2 faiz, yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 15,5 faiz bahalaşmışdır.

Cədvəl 48

## Qeyri-ərzaq məhsullarının qiymət indeksləri

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2015-ci ilin yanvar-iyul ayları 2014-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Parçalar | 100,3 | 114,4 | 102,0 |
| Geyim | 100,3 | 111,1 | 100,4 |
| Ayaqqabı | 100,2 | 108,7 | 99,7 |
| İnşaat materialları | 100,2 | 116,5 | 106,8 |
| Mebel və ev əşyaları | 100,1 | 110,8 | 101,5 |
| Xalça və digər döşəmə örtükləri | 100,7 | 121,3 | 98,6 |
| Məişət cihazları | 100,2 | 129,0 | 128,6 |
| Kiçik elektrik cihazları | 100,6 | 129,3 | 123,6 |
| Şüşə məmulatları, yemək qabları və əşyaları | 100,5 | 120,4 | 102,1 |
| Evə qulluq etmək üçün lazım olan məhsullar (mebellərə qulluq etmək, unitaz və vannaların təmizlənməsi, qabların yuyulması üçün vasitələr və s,) | 100,2 | 127,5 | 101,2 |
| Dərmanlar | 100,2 | 133,9 | 101,3 |
| Tibb təyinatlı digər məhsullar | 100,5 | 124,0 | 100,8 |
| Müalicə ləvazimatları və cihazları | 100,1 | 113,9 | 100,6 |
| Minik avtomobilləri | 100,0 | 108,6 | 102,9 |
| Velosipedlər | 100,4 | 118,6 | 102,2 |
| Minik avtomobilləri üçün ehtiyat hissələri | 100,0 | 130,3 | 102,9 |
| Yanacaq məhsulları (benzin və dizel yanacağı) | 100,0 | 100,0 | 101,9 |
| Telefon aparatları | 100,1 | 117,0 | 98,2 |
| Foto-kino avadanlıqları və optik cihazlar | 100,3 | 120,0 | 120,2 |
| Məlumatın işlənməsi üçün avadanlıqlar (kalkulyator, fərdi kompyuter, noutbuk, planşet) | 100,1 | 124,7 | 122,0 |

...sonu

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2015-ci ilin yanvar-iyul ayları 2014-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Uzunmüddətli istifadə üçün istirahət əşyaları və musiqi alətləri | 100,0 | 102,5 | 100,8 |
| Oyuncaqlar | 100,5 | 113,6 | 102,2 |
| Açıq havada idman, turizmlə məşğul olmaq və istirahət etmək üçün əşyalar | 100,4 | 110,2 | 100,8 |
| Ev heyvanları üçün yemlər | 100,0 | 120,7 | 99,4 |
| Kitablar | 100,5 | 103,0 | 101,7 |
| Qəzetlər və dövri nəşrlər | 100,0 | 104,4 | 100,1 |
| Dəftərxana və şəkil çəkmək üçün ləvazimat | 100,0 | 122,9 | 100,5 |
| Şəxsi gigiyena əşyaları, saç qurutmaq üçün fenlər | 100,6 | 121,0 | 101,5 |
| Zərgərlik məmulatları | 100,3 | 127,4 | 99,9 |
| Sair şəxsi istifadə əşyaları | 100,2 | 111,5 | 101,3 |

2016-cı ilin iyul ayında əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri iyun ayına nisbətən 1,0 faiz, yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 4,7 faiz bahalaşmışdır.

Cədvəl 49

## Əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2015-ci ilin yanvar-iyul ayları 2014-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Paltarların təmizlənməsi, təmiri və kirayəsi | 100,1 | 105,3 | 101,8 |
| Ayaqqabıların təmiri | 100,0 | 104,2 | 99,2 |
| İcarəçi tərəfindən ödənilmiş icarə haqqı | 100,2 | 105,5 | 104,3 |
| Mənzil sahəsinin saxlanması və təmiri ücün lazım olan materiallar | 100,3 | 102,9 | 100,0 |
| Soyuq su təchizatı | 100,0 | 107,7 | 100,0 |
| Zibilin daşınması | 100,0 | 100,0 | 100,0 |
| Kanalizasiya xidməti | 100,0 | 164,3 | 100,0 |
| Elektrik enerjisi təchizatı | 116,7 | 102,4 | 100,0 |
| Təbii qaz təchizatı | 100,0 | 100,0 | 100,0 |
| Mərkəzi isitmə xidməti | 100,0 | 100,0 | 100,0 |
| Mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri | 100,0 | 104,9 | 101,2 |
| Məişət cihazlarının təmiri | 100,0 | 103,9 | 101,2 |
| Ev və məişət xidmətləri | 100,0 | 104,2 | 102,1 |
| Tibbi xidmətlər | 100,0 | 101,6 | 101,3 |
| Stomatoloji xidmətlər | 100,1 | 107,4 | 99,1 |
| Xəstəxana xidmətləri | 100,0 | 100,8 | 99,8 |
| Avtomobillərin təmiri | 100,1 | 105,4 | 101,0 |
| Nəqliyyat vasitələri ilə bağlı digər xidmətlər | 100,2 | 100,4 | 79,4 |
| Dəmir yolu ilə sərnişindaşıma xidməti | 101,6 | 119,2 | 102,9 |
| Avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti | 100,0 | 101,7 | 100,2 |
| Hava nəqliyyatı ilə sərnişindaşıma xidməti | 102,0 | 104,3 | 104,4 |
| Dəniz nəqliyyatı ilə sərnişindaşıma xidməti | 103,3 | 153,6 | 131,8 |

...sonu

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2015-ci ilin yanvar-iyul ayları 2014-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Poçt xidmətləri | 100,0 | 100,0 | 100,0 |
| Telefon rabitəsi xidmətləri | 100,0 | 100,0 | 100,0 |
| Kompleks istirahətin təşkili üzrə xidmətlər | 100,2 | 109,9 | 106,6 |
| Ödənişli ali təhsil haqqı | 100,0 | 108,3 | 103,0 |
| Restoran və kafelər tərəfindən yeməklə təmin edilmə xidmətləri | 100,2 | 108,5 | 102,0 |
| Mehmanxana xidməti | 100,0 | 102,3 | 102,0 |
| Bərbərxana və kosmetik xidmətlər | 100,0 | 104,1 | 101,9 |
| Nəqliyyat vasitələrinin sığortası haqqı | 100,0 | 100,0 | 100,0 |

Cədvəl 50

## Ölkənin iqtisadi rayonları üzrə 2016-cı ilin iyul ayında istehlak qiymətləri indeksləri (əvvəlki aya nisbətən, faizlə)

| | Cəmi məhsullar və xidmətlər üzrə | Ərzaq məhsulları, içkilər, tütün | Qeyri-ərzaq məhsulları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 99,7 | 98,5 | 99,9 | 101,0 |
| Abşeron | 100,0 | 98,9 | 100,2 | 101,2 |
| Gəncə-Qazax | 99,6 | 98,1 | 100,4 | 100,9 |
| Şəki-Zaqatala | 99,4 | 98,2 | 100,0 | 100,8 |
| Lənkəran | 99,7 | 98,4 | 100,3 | 101,1 |
| Quba-Xaçmaz | 99,6 | 97,7 | 100,5 | 101,4 |
| Aran | 99,9 | 98,8 | 100,1 | 101,1 |
| Yuxarı Qarabağ | 99,8 | 99,3 | 100,0 | 100,4 |
| Dağlıq Şirvan | 99,8 | 98,9 | 100,0 | 100,7 |
| Naxçıvan Muxtar Respublikası | 99,8 | 98,9 | 100,0 | 100,9 |

Qrafik 22

**İqtisadi rayonlar üzrə istehlak qiymətləri indeksləri**
(əvvəlki aya nisbətən, faizlə)




**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri.** İyul ayında iyun ayına nisbətən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri 0,3 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalçı qiymətləri 0,7 faiz ucuzlaşmış, heyvandarlıq məhsullarının istehsalçı qiymətləri isə 0,1 faiz bahalaşmışdır.

Ay ərzində balıq və sair balıqçılıq məhsulları və həmçinin, meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətləri üzrə dəyişiklik müşahidə olunmamışdır.

Cədvəl 51

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayı 2015-cı ilin yanvar-iyul ayına nisbətən, faizlə |
|---|---|---|
| **Kənd təsərrüfatı məhsulları – cəmi** | **99,7** | **92,4** |
| o cümlədən: bitkiçilik məhsulları | 99,3 | 82,8 |
| heyvandarlıq məhsulları | 100,1 | 102,2 |
| **Meşə təsərrüfatı məhsulları** | **100,0** | **101,7** |
| **Balıq və sair balıqçılıq məhsulları** | **100,0** | **105,0** |

## Sənaye məhsullarının istehsalçı qiymət indeksləri

2016-cı ilin iyul ayında sənaye məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 3,2 faiz, o cümlədən mədənçıxarma sənayesi üzrə 4,2 faiz ucuzlaşmış, emal sənayesi üzrə 0,9 faiz bahalaşmış, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri üzrə isə dəyişiklik baş verməmişdir.

Cədvəl 52

**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi** | **96,8** | **108,9** |
| Mədənçıxarma sənayesi | 95,8 | 108,9 |
| Emal sənayesi | 100,9 | 109,5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | **100,0** | **107,5** |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | **100,0** | **103,3** |

**Nəqliyyat, poçt və rabitə qiymətləri indeksləri.** 2016-cı ilin iyul ayında nəqliyyat xidmətlərinin qiymətləri əvvəlki ayla müqayisədə 2,3 faiz, o cümlədən yükdaşıma xidmətlərinin qiymətləri 2,8 faiz, sərnişindaşıma xidmətlərinin qiymətləri isə 0,7 faiz bahalaşmışdır.

Ay ərzində poçt və kuryer xidmətlərinin və rabitə xidmətlərinin qiymətlərində əvvəlki ayla müqayisədə dəyişiklik müşahidə olunmamışdır.

Cədvəl 53

**Nəqliyyat, poçt və rabitə qiymətləri indeksi**

| | 2016-cı ilin iyul ayı 2016-cı ilin iyun ayına nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyul ayları 2015-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Nəqliyyat xidmətlərinin qiymət indeksi – cəmi** | **102,3** | **125,6** |
| o cümlədən: Yükdaşıma nəqliyyatı xidməti | 102,8 | 134,3 |
| Sərnişindaşıma nəqliyyatı xidməti | 100,7 | 99,5 |
| **Poçt və kuryer xidmətlərinin qiymət indeksi** | **100,0** | **101,7** |
| **Rabitə xidmətlərinin qiymət indeksi** | **100,0** | **90,6** |

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksləri.** 2016-cı ilin II rübündə tikintidə (tikinti-quraşdırma işlərində) istehsalçı qiymətləri əvvəlki rüblə müqayisədə 0,6 faiz, o cümlədən yerüstü tikililər üzrə qiymətlər 0,6 faiz, yol və körpü tikintisi üzrə qiymətlər isə 0,2 faiz bahalaşmışdır.

Cədvəl 54

## Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksləri

| | 2016-cı ilin II rübü 2016-cı ilin I rübünə nisbətən, faizlə | 2016-cı ilin yanvar-iyun ayları 2016-cı ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi-cəmi** | **100,6** | **101,9** |
| **Yerüstü tikililər üzrə qiymət indeksi** | **100,6** | **101,9** |
| yaşayış evləri üzrə qiymət indeksi | 100,5 | 102,1 |
| 5 mərtəbəyə qədər yaşayış evləri | 99,9 | 103,1 |
| 6 və çoxmərtəbəli yaşayış evləri | 100,7 | 101,8 |
| sosial təyinatlı binalar üzrə qiymət indeksi | 100,9 | 102,5 |
| inzibati tikililər | 101,1 | 102,3 |
| ümumtəhsil məktəbləri | 100,8 | 102,5 |
| istehsal təyinatlı obyektlər üzrə qiymət indeksi | 100,8 | 99,2 |
| sənaye obyektləri | 100,8 | 99,2 |
| **Yol və körpü tikintisi üzrə qiymət indeksi** | **100,2** | **102,0** |
| yol tikintisi | 100,1 | 102,2 |
| körpü tikintisi | 100,4 | 99,7 |

**İdxal olunan məhsulların qiymət indeksləri.** 2016-cı ilin iyun ayında idxal olunan məhsulların qiymətləri əvvəlki ayla müqayisədə 0,1 faiz, MDB ölkələrindən idxal olunan məhsulların qiymətləri 0,8 faiz bahalaşmış, digər ölkələrdən idxal olunan məhsulların qiymətləri 0,1 faiz ucuzlaşmışdır.

**İxrac olunan məhsulların qiymət indeksləri.** 2016-cı ilin iyun ayında ixrac olunan məhsulların qiymətləri əvvəlki ayla müqayisədə 2,1 faiz, digər ölkələrə ixrac olunan məhsulların qiymətləri 2,6 faiz bahalaşmış, MDB ölkələrinə ixrac olunan məhsulların qiymətləri isə 0,6 faiz ucuzlaşmışdır.

# Kredit qoyuluşları

Mərkəzi Bankın məlumatına görə, 2016-cı il iyulun 1-nə ölkə iqtisadiyyatına kredit qoyuluşu milli valyuta ekvivalentində 18434,2 milyon manat təşkil etmiş, onun 14374,9 milyon manatı uzunmüddətli kreditlər olmuşdur.

Kreditlərin 31,9 faizi dövlət, 65,1 faizi qeyri-dövlət bankları, 3,0 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqlarının payına düşmüşdür.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 8,4 faizini təşkil etmişdir.

Cədvəl 55

**İqtisadiyyata kredit qoyuluşu**

| | 2016-cı il iyulun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 18434,2 | 90,9 |
| o cümlədən: qısamüddətli | 4059,3 | 91,2 |
| uzunmüddətli | 14374,9 | 90,8 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 1539,8 | 115,0 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 8,4 | - |

Qrafik 23


İqtisadiyyata kredit qoyuluşu, mlrd. manat
22,0
20,0
18,0
16,0
14,0
12,0
10,0
8,0
6,0
4,0
2,0
0,0
20,3
20,2
20,1
19,1
18,6
18,7
21,7
21,2
20,3
19,6
18,8
18,2
18,4
01.07.15
01.08.15
01.09.15
01.10.15
01.11.15
01.12.15
01.01.16
01.02.16
01.03.16
01.04.16
01.05.16
01.06.16
01.07.16
Uzunmüddətli
Qısamüddətli

## Məşğulluq və işsizlik

2016-cı il avqustun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4962,3 min nəfər olmuş, onlardan 4716,5 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir.

Cari il iyulun 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1521,1 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 889,7 min nəfər, qeyri-dövlət sektorunda isə 631,4 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft sektorunda 34,5 min nəfər, qeyri-neft sektorunda isə 1486,6 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,9 faizi emal sənayesində, 6,8 faizi tikintidə, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,2 faizi mədənçıxarma sənayesində, 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 22,2 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi istirahət, əyləncə və incəsənət, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi maliyyə və sığorta fəaliyyəti, 1,6 faizi informasiya və rabitə, 1,6 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışmışlar.

2016-cı ilin yanvar-iyun aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 150,3 saat təşkil etmişdir.

Cədvəl 56

**2016-cı ilin yanvar-iyun aylarında iqtisadi fəaliyyət növləri üzrə bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı**

| İqtisadi fəaliyyət növləri | İş saatlarının miqdarı |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 152,0 |
| Mədənçıxarma sənayesi | 148,7 |
| Emal sənayesi | 147,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 148,0 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 152,0 |
| Tikinti | 151,8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 157,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 146,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 153,5 |
| İnformasiya və rabitə | 150,7 |
| Maliyyə və sığorta fəaliyyəti | 152,2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 152,3 |
| Peşə, elmi və texniki fəaliyyət | 150,1 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 149,8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 152,9 |
| Təhsil | 146,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 146,2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 148,8 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 147,8 |

2016-cı il avqust ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 35,0 min nəfər olmuş, onların 37,7 faizini qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 246,2 manat olmuşdur.

Cədvəl 57

## Məşğulluq xidməti orqanları tərəfindən işsiz statusu verilmiş şəxslərin və işsizlik müavinəti alanların sayı

(1 avqust 2016-cı il vəziyyətinə)

| | İşsiz statusuna malik olanlar, nəfər | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| **Ölkə üzrə – cəmi** | **34970** | **9160*** |
| **Bakı şəhəri – cəmi** | **15494** | **3760** |
| **Abşeron iqtisadi rayonu – cəmi** | **1891** | **1351** |
| o cümlədən: | | |
| Xızı rayonu | 122 | 21 |
| Abşeron rayonu | 577 | 245 |
| Sumqayıt şəhəri | 1192 | 1085 |
| **Gəncə-Qazax iqtisadi rayonu – cəmi** | **2213** | **713** |
| o cümlədən: | | |
| Gəncə şəhəri | 753 | 308 |
| Qazax rayonu | 417 | 83 |
| Ağstafa rayonu | 158 | 35 |
| Tovuz rayonu | 156 | 71 |
| Şəmkir rayonu | 297 | 75 |
| Gədəbəy rayonu | 182 | 29 |
| Daşkəsən rayonu | 4 | 3 |
| Samux rayonu | 30 | 19 |
| Göygöl rayonu | 78 | 27 |
| Goranboy rayonu | 100 | 43 |
| Naftalan şəhəri | 38 | 20 |
| **Şəki-Zaqatala iqtisadi rayonu – cəmi** | **957** | **438** |
| o cümlədən: | | |
| Balakən rayonu | 184 | 84 |
| Zaqatala rayonu | 94 | 58 |
| Qax rayonu | 170 | 73 |
| Şəki şəhəri | 289 | 142 |
| Oğuz rayonu | 83 | 62 |
| Qəbələ rayonu | 137 | 19 |
| **Lənkəran iqtisadi rayonu – cəmi** | **986** | **252** |
| o cümlədən: | | |
| Astara rayonu | 89 | 17 |
| Lənkəran şəhəri | 322 | 161 |
| Lerik rayonu | 39 | 7 |
| Yardımlı rayonu | 82 | 12 |

...ardı...

| | İşsiz statusuna malik olanlar, nəfər | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| Masallı rayonu | 138 | 27 |
| Cəlilabad rayonu | 316 | 28 |
| **Quba-Xaçmaz iqtisadi rayonu – cəmi** | **1253** | **410** |
| o cümlədən:<br>Qusar rayonu | 375 | 28 |
| Xaçmaz rayonu | 155 | 109 |
| Quba rayonu | 403 | 100 |
| Şabran rayonu | 166 | 57 |
| Siyəzən rayonu | 154 | 116 |
| **Aran iqtisadi rayonu – cəmi** | **8122** | **1489** |
| o cümlədən:<br>Göyçay rayonu | 577 | 154 |
| Beyləqan rayonu | 120 | 49 |
| Ağcabədi rayonu | 326 | 43 |
| Bərdə rayonu | 1636 | 99 |
| Neftçala rayonu | 324 | 47 |
| Biləsuvar rayonu | 310 | 47 |
| Salyan rayonu | 171 | 25 |
| Yevlax şəhəri | 297 | 63 |
| Mingəçevir şəhəri | 1917 | 309 |
| Ağdaş rayonu | 37 | 30 |
| Ucar rayonu | 49 | 26 |
| Zərdab rayonu | 45 | 17 |
| Kürdəmir rayonu | 450 | 51 |
| İmişli rayonu | 136 | 62 |
| Saatlı rayonu | 47 | 29 |
| Sabirabad rayonu | 393 | 74 |
| Hacıqabul rayonu | 520 | 168 |
| Şirvan şəhəri | 767 | 196 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu – cəmi** | **1788** | **372** |
| o cümlədən:<br>Cəbrayıl rayonu | 351 | 176 |
| Füzuli rayonu | 33 | 7 |
| Ağdam rayonu | 683 | 102 |
| Tərtər rayonu | 542 | 41 |
| Xocalı rayonu | 94 | 14 |
| Şuşa rayonu | 55 | 23 |
| Xocavənd rayonu | 30 | 9 |
| Xankəndi şəhəri | - | - |

... sonu

| | İşsiz statusuna malik olanlar, nəfər | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| **Kəlbəcər-Laçın iqtisadi rayonu – cəmi** | **1447** | **204** |
| o cümlədən:<br>Kəlbəcər rayonu | 883 | 45 |
| Laçın rayonu | 214 | 31 |
| Qubadlı rayonu | 290 | 85 |
| Zəngilan rayonu | 60 | 43 |
| **Dağlıq Şirvan iqtisadi rayonu – cəmi** | **819** | **171** |
| o cümlədən:<br>Qobustan rayonu | 61 | 23 |
| İsmayıllı rayonu | 417 | 25 |
| Ağsu rayonu | 180 | 33 |
| Şamaxı rayonu | 161 | 90 |
| **Naxçıvan Muxtar Respublikası – cəmi** | **-** | **-** |

* “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən işsizlik statusuna malik olan şəxslərdən bir qismi işsizlik müavinəti almışlar.

## Yeni iş yerləri

Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş üçüncü Dövlət Proqramının icrasını əhatə edən 01 yanvar 2014-cü ildən 01 iyul 2016-cı il tarixinə qədər olan dövr ərzində ümumilikdə 336,3 min olmaqla 269,4 min daimi iş yerləri yaradılmışdır. 2016-cı ilin I yarımili ərzində isə ölkədə 93,1 min yeni, o cümlədən 73,1 min daimi iş yerləri açılmışdır. Bu dövrdə yaradılmış iş yerlərinin 63,7 faizi qeyri-dövlət sektorunda açılmışdır. Yeni iş yerlərinin 26,3 faizi Bakı şəhərinin, 1,9 faizi Naxçıvan Muxtar Respublikasının, 71,8 faizi regionların, o cümlədən 25,9 faizi Aran, 14,3 faizi Gəncə-Qazax, 7,2 faizi Abşeron, 6,9 faizi Lənkəran, 5,7 faizi Şəki-Zaqatala, 4,4 faizi Quba-Xaçmaz, 3,7 faizi Dağlıq Şirvan, 3,1 faizi Yuxarı Qarabağ, 0,6 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşmüşdür.

Daimi iş yerlərinin 9,7 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 25,1 faizi mövcud müəssisə və təşkilatlarda, 1,1 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 64,1 faizi isə fərdi sahibkarlıq subyektləri tərəfindən açılmışdır.

Qrafik 24

**2016-cı ilin I yarımili ərzində**
**yeni açılmış daimi iş yerləri** (faizlə)




Hüquqi səxslər tərəfindən yaradılmış daimi iş yerlərinin 7,8 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,4 faizi tikinti, 4,2 faizi su təchizatı; tullantıların təmizlənməsi və emalı, 3,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 2,9 faizi emal sənayesi, 1,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 7,3 faizi isə digər fəaliyyətlər üzrə ixtisaslaşmış müəssisə və təşkilatlarda açılmışdır.

Qrafik 25

**2016-cı ilin I yarımili ərzində yeni açılmış daimi iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə bölgüsü** (faizlə)




| | |
|---|---|
| A | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| B | Mədənçıxarma sənayesi |
| C | Emal sənayesi |
| D | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı |
| E | Su təchizatı, tullantıların təmizlənməsi və emalı |
| F | Tikinti |
| G | Ticarət; nəqliyyat vasitələrinin təmiri |
| H | Nəqliyyat və anbar təsərrüfatı |
| I | Turistlərin yerləşdirilməsi və ictimai iaşə |
| J | İnformasiya və rabitə |
| K | Maliyyə və sığorta fəaliyyəti |
| L | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar |
| M | Peşə, elmi və texniki fəaliyyət |
| N | İnzibati və yardımçı xidmətlərin göstərilməsi |
| O | Dövlət idarəetməsi və müdafiə; sosial təminat |
| P | Təhsil |
| Q | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi |
| R | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət |
| S | Digər sahələrdə xidmətlərin göstərilməsi |
| T | Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət |
| U | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti |

Bununla yanaşı, 2016-cı ilin I yarımili ərzində ölkədə 25,7 min iş yeri bağlanmışdır. Bu dövrdə bağlanmış iş yerlərinin 75,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İş yerlərinin 63,2 faizi fərdi sahibkarlıq subyektlərinin, 18,8 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 18,0 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanmışdır.

# Dövlət büdcəsi

2016-cı ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri 6133,7 milyon manat, xərcləri 6821,5 milyon manat təşkil etmiş, büdcənin icrasında 687,8 milyon manatlıq və ya ümumi daxili məhsulun 2,5 faizi qədər kəsir yaranmışdır.

Cədvəl 58

**Dövlət büdcəsinin gəlirləri**

| | İcra, milyon manat | | 2016-cı ilin yanvar-iyunu 2015-ci ilin yanvar-iyununa nisbətən, faizlə |
|---|---|---|---|
| | 2016-cı ilin yanvar-iyun ayları | 2015-ci ilin yanvar-iyun ayları | |
| **Gəlirlər – cəmi** | **6133,7** | **7806,9** | **78,6** |
| o cümlədən: | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 582,8 | 514,7 | 113,2 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 928,7 | 1058,4 | 87,7 |
| Torpaq vergisi | 23,2 | 22,4 | 103,6 |
| Əmlak vergisi | 79,2 | 68,8 | 115,1 |
| Əlavə dəyər vergisi | 1501,8 | 1496,1 | 100,4 |
| Sadələşdirilmiş vergi | 138,3 | 89,7 | 154,2 |
| Aksiz | 295,4 | 315,2 | 93,7 |
| Yol vergisi | 66,1 | 36,8 | 179,6 |
| Mədən vergisi | 51,7 | 56,8 | 91,0 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 340,6 | 312,3 | 109,1 |
| Digər daxilolmalar | 2125,9 | 3835,8 | 55,4 |

Daxilolmaların 24,5 faizi əlavə dəyər vergisi, 15,1 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 9,5 faizi fiziki şəxslərin gəlir vergisi, 4,8 faizi aksizlər, 11,4 faizi digər vergilər, 34,7 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Cədvəl 59

## Dövlət büdcəsinin xərcləri

| | İcra, milyon manat | | 2016-cı ilin yanvar-iyunu 2015-ci ilin yanvar-iyununa nisbətən, faizlə |
|---|---|---|---|
| | 2016-cı ilin yanvar-iyun ayları | 2015-ci ilin yanvar-iyun ayları | |
| **Xərclər – cəmi** | **6821,5** | **8577,8** | **79,5** |
| o cümlədən: Ümumi dövlət xidmətləri | 1276,6 | 784,7 | 162,7 |
| ondan: beynəlxalq təşkilatlara üzvlük haqqı | 131,1 | 91,1 | 143,9 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 482,5 | 474,4 | 101,7 |
| Təhsil | 737,0 | 653,1 | 112,8 |
| Səhiyyə | 254,7 | 292,3 | 87,1 |
| Sosial müdafiə və sosial təminat | 1096,2 | 962,5 | 113,9 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 426,6 | 116,9 | 3,7 dəfə |
| İqtisadiyyatın maliyyələşdirilməsi | 1072,5 | 4024,4 | 26,6 |
| o cümlədən: mənzil və kommunal təsərrüfatı | 120,8 | 112,5 | 107,4 |
| kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 166,5 | 169,5 | 98,2 |
| sənaye, tikinti və faydalı qazıntılar | 621,0 | 3566,0 | 17,4 |
| nəqliyyat və rabitə | 36,9 | 36,5 | 101,1 |
| yanacaq və enerji | 1,4 | 1,5 | 93,3 |
| iqtisadi fəaliyyət | 125,9 | 138,4 | 91,0 |
| Digər xərclər | 1475,4 | 1269,5 | 116,2 |
| **Kəsir** | **-687,8** | **-770,9** | **-** |

Büdcə vəsaitlərinin 18,7 faizi ümumi dövlət xidmətləri, 16,1 faizi sosial müdafiə və sosial təminat, 14,5 faizi təhsil və səhiyyə sahələrinin, 15,7 faizi iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 35,0 faizi isə digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Cədvəl 60

**Büdcə gəlirlərinin strukturu, faizlə**

| | Cəmi | ÜDM-də |
|---|---|---|
| **Gəlirlər – cəmi** | **100,0** | **22,7** |
| o cümlədən: Fiziki şəxslərin gəlir vergisi | 9,5 | 2,2 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 15,1 | 3,4 |
| Torpaq vergisi | 0,4 | 0,1 |
| Əmlak vergisi | 1,3 | 0,3 |
| Əlavə dəyər vergisi | 24,5 | 5,5 |
| Sadələşdirilmiş vergi | 2,2 | 0,5 |
| Aksiz | 4,8 | 1,1 |
| Yol vergisi | 1,1 | 0,2 |
| Mədən vergisi | 0,8 | 0,2 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 5,6 | 1,3 |
| Digər daxilolmalar | 34,7 | 7,9 |

Cədvəl 61

## Büdcə xərclərinin strukturu, faizlə

| | Cəmi | ÜDM-də |
|---|---|---|
| **Xərclər – cəmi** | **100,0** | **25,3** |
| o cümlədən: Ümumi dövlət xidmətləri | 18,7 | 4,7 |
| ondan: beynalxalq təşkilatlara üzvlük haqqı | 1,9 | 0,5 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 7,1 | 1,8 |
| Təhsil | 10,8 | 2,7 |
| Səhiyyə | 3,7 | 0,9 |
| Sosial müdafiə və sosial təminat | 16,1 | 4,1 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 6,3 | 1,6 |
| İqtisadiyyatın maliyyələşdirilməsi | 15,7 | 4,0 |
| o cümlədən: mənzil və kommunal təsərrüfatı | 1,8 | 0,5 |
| kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 2,5 | 0,6 |
| sənaye, tikinti və faydalı qazıntılar | 9,1 | 2,3 |
| nəqliyyat və rabitə | 0,5 | 0,1 |
| yanacaq və enerji | 0,02 | 0,01 |
| iqtisadi fəaliyyət | 1,8 | 0,5 |
| Digər xərclər | 21,6 | 5,5 |
| **Kəsir** | **-** | **-2,5** |

Qrafik 26

**2016-cı ilin yanvar-iyun aylarında büdcə gəlirlərinin strukturu**




Qrafik 27

**2016-cı ilin yanvar-iyun aylarında büdcə xərclərinin strukturu**



Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən 2016-cı ilin yanvar-iyul aylarında dövlət büdcəsinin gəlirləri 7007,5 milyon manat, xərcləri 8193,5 milyon manat təşkil etmiş, büdcənin icrasında 1186,0 milyon manatlıq və ya ümumi daxili məhsulun 3,7 faizi qədər kəsir yaranmışdır.

## Xarici ticarət

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən 2016-cı ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 163 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 100 ölkəyə məhsul ixrac olunmuş, 154 ölkədən idxal olunmuşdur.

Bu dövr ərzində xarici ölkələrlə 7868,7 milyon ABŞ dolları məbləğində, o cümlədən 3821,5 milyon dollarlıq ixrac və 4047,2 milyon dollarlıq idxal əməliyyatları aparılmış, nəticədə 225,7 milyon dollarlıq mənfi ticarət saldosu yaranmışdır. 2015-ci ilin eyni dövrünə nisbətən məhsul mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 14,0 faiz azalmışdır. Ticarət dövriyyəsinin 1298,9 milyon dolları, yaxud 16,5 faizi MDB üzvü dövlətlərinin, 6569,8 milyon dolları və ya 83,5 faizi digər ölkələrin payına düşmüşdür. Dövriyyənin 3146,7 milyon dollarlıq hissəsi və ya 40,0 faizi Avropa İttifaqı ölkələri ilə ticarət əlaqələrinin nəticəsində yaranmışdır.

2016-cı ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac olunmuş məhsulların dəyəri müqayisəli qiymətlərlə 13,9 faiz az olmuşdur. MDB üzvü dövlətlərinə ixrac olunmuş məhsulların dəyəri real ifadədə 33,5 faiz artaraq 313,9 milyon dollar təşkil etmiş, digər ölkələrə isə 16,1 faiz az məhsul göndərilmişdir. İxracın ümumi dəyərinin 53,5 faizi Avropa İttifaqı ölkələrinin, 8,2 faizi MDB üzvü dövlətlərinin, 38,3 faizi isə digər ölkələrin payına düşmüşdür.

2016-cı ilin yanvar-iyun aylarında ölkəyə idxal olunmuş məhsulların dəyəri müqayisəli qiymətlərlə 14,1 faiz azalmış, MDB üzvü dövlətlərindən 2,9 faiz, digər ölkələrdən 17,3 faiz az məhsul idxal olunmuşdur. İdxalın ümumi dəyərinin 27,2 faizi Avropa İttifaqı ölkələrinin, 24,3 faizi MDB üzvü dövlətlərinin, 48,5 faizi isə digər ölkələrin hesabına formalaşmışdır.

Xarici ticarət dövriyyəsinin 81,9 faizi İtaliya, Rusiya, Türkiyə, Almaniya, Fransa, Tayvan, ABŞ, Çin, Birləşmiş Krallıq, İsrail, Çexiya, Gürcüstan, Sinqapur, Yaponiya,

Hindistan, Portuqaliya, Ukrayna, Norveç, Tailand, İsveçrə və Xorvatiya dövlətlərinin hesabına formalaşmışdır.

Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,4 faizi Rusiyanın, 13,0 faizi Türkiyənin, 6,4 faizi Çinin, 6,3 faizi Birləşmiş Krallığın, 6,1 faizi ABŞ-ın, 4,5 faizi İtaliyanın, 4,4 faizi Sinqapurun, 4,2 faizi Almaniyanın, 4,1 faizi Yaponiyanın, 3,0 faizi Ukraynanın, 2,8 faizi Norveçin, 1,8 faizi Fransanın, 1,7 faizi Braziliyanın, hər biri 1,6 faiz olmaqla İran və Qazaxıstanın, 1,2 faizi Xorvatiyanın, hər biri 1,1 faiz olmaqla Niderland və Avstriyanın, hər biri 1,0 faiz olmaqla Koreya və Birləşmiş Ərəb Əmirliklərinin, 14,7 faizi isə digər ölkələrin payına düşmüşdür.

Qrafik 28

**2016-cı ilin yanvar-iyun aylarında idxalda daha çox paya malik olan ölkələr** (milyon ABŞ dolları ilə)




İdxal olunmuş məhsulların dəyərində maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, ərzaq məhsulları, qara metallardan hazırlanan məmulatlar, nəqliyyat vasitələri və onların hissələri, plastik kütlə və ondan hazırlanan məmulatlar, əczaçılıq məhsulları, oduncaq və ondan hazırlanan məmulatlar, tütün məmulatları, mebel və onun hissələrinin xüsusi çəkisi üstünlük təşkil etmişdir.

İdxalın ümumi dəyərinin 56,8 faizini avtomobil, 24,0 faizini dəmiryolu, 11,0 faizini hava, 7,7 faizini dəniz nəqliyyatı vasitəsi ilə gətirilmiş, 0,5 faizini isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş məhsullar təşkil etmişdir.

2015-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 2016-cı ilin yanvar-iyun aylarında bitki yağlarının idxalı 19,6 faiz, xam şəkər və şəkər – 8,8 faiz, kərə yağı, digər süd yağları və pastaları – 26,3 faiz, kartof – 41,1 faiz, çay – 94,2 faiz, təzə tərəvəz – 90,3 faiz, quş əti və əlavə məhsulları – 2,6 dəfə, mebel – 42,6 faiz, hesablama maşınları, blok və qurğuları – 2,5 dəfə, rezin şinlər – 2,2 faiz, məişət kondisionerləri – 6,8 dəfə, paltaryuyan maşınlar – 54,7 faiz artmış, buğda idxalı isə 14,7 faiz, təzə meyvə – 5,3 faiz, mal əti – 31,5 faiz, minik avtomobilləri – 85,9 faiz, qara metallardan borular – 39,5 faiz, polad prokatı – 6,3 faiz, polietilen – 15,3 faiz, qara metallardan çubuqlar – 75,3 faiz, sement və sement klinkerləri – 33,9 faiz, qara metallardan künclüklər – 31,7 faiz, mineral gübrələr – 35,9 faiz azalmışdır.

2016-cı ilin yanvar-iyun aylarında ölkəyə 2222 ədəd minik avtomobili, 39 ədəd avtobus, 252 ədəd yük avtomobili idxal olunmuşdur.

İxrac olunmuş məhsulların dəyərinin 19,9 faizini İtaliyaya, 9,0 faizini Fransaya, 8,7 faizini Almaniyaya, 7,9 faizini Tayvana, 6,2 faizini İsrailə, 5,0 faizini Rusiyaya, 4,8 faizini Çexiyaya, 4,7 faizini Gürcüstana, 4,2 faizini Türkiyəyə, 3,5 faizini Portuqaliyaya, 3,0 faizini Hindistana, 2,6 faizini Tailanda, hər biri 2,0 faiz olmaqla İndoneziya və Türkmənistana, 1,7 faizini İspaniyaya, 1,6 faizini İsveçrəyə, 1,5 faizini Tunisə, 1,4 faizini Rumıniyaya, 1,3 faizini Xorvatiyaya, 1,0 faizini Livana, qalan 8,0 faizini isə digər ölkələrə göndərilmiş məhsullar təşkil etmişdir.

Qrafik 29

**2016-cı ilin yanvar-iyun aylarında ixracda daha çox paya malik olan ölkələr** (milyon ABŞ dolları ilə)




2016-cı ilin yanvar-iyun aylarında ixrac olunmuş məhsulların dəyərinin 79,6 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş, 8,6 faizini dəmiryolu, 7,5 faizini avtomobil, 2,9 faizini dəniz, 1,4 faizini hava nəqliyyatı vasitələri ilə göndərilmiş məhsullar təşkil etmişdir.

İxracın strukturunda xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, plastik kütlə, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, şəkər, kimya sənayesi məhsulları, pambıq ipliyi, bitki yağları üstünlük təşkil etmişdir.

2016-cı ilin yanvar-iyun aylarında 2015-ci ilin eyni dövrü ilə müqayisədə təzə tərəvəz ixracı 43,9 faiz, təzə meyvə – 11,4 faiz, kartof – 4,6 faiz, polietilen – 6,0 faiz, qara metallardan borular – 4,0 dəfə, pambıq ipliyi – 68,9 faiz artmış, şəkər ixracı isə 44,9 faiz, bitki yağları – 60,6 faiz, çay – 65,0 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 90,6 faiz, emal olunmamış alüminium – 12,5 faiz azalmışdır.

2016-cı ilin yanvar-iyun aylarında qeyri-neft məhsullarının ixracı 2015-ci ilin eyni dövrü ilə müqayisədə 27,0 faiz azalaraq

584,5 milyon dollara bərabər olmuş və ixracın ümumi dəyərinin 15,3 faizini təşkil etmişdir. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracı 49,1 faiz artmışdır.

İxrac olunduğu zaman gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmayan xam neft və təbii qazın həcmi nəzərə alınmaqla, 2016-cı ilin yanvar-iyun aylarında ölkədən 17973,3 min ton xam neft, 4062,1 milyon kub metr təbii qaz göndərilmişdir. Faktiki ölkə sərhədini keçən xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2016-cı ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsi 10325,9 milyon ABŞ dollarına bərabər olmuş və əvvəlki ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 7,5 faiz azalmışdır. Ölkədən ixrac olunmuş məhsulların statistik qiymətləndirilmiş dəyəri 6278,7 milyon dollar təşkil edərək əvvəlki ilin eyni dövrünün səviyyəsindən 4,1 faiz az olmuşdur.

Qrafik 30

**2016-cı ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsində daha çox paya malik olan ölkələr**
(milyon ABŞ dolları ilə)



Qrafik 31

**2016-cı ilin yanvar-iyun aylarında MDB üzvü dövlətləri ilə ticarət dövriyyəsi**
(milyon ABŞ dolları ilə)




2016-cı ilin yanvar-iyun aylarında ölkəmizə 19,5 milyon dollarlıq humanitar və texniki yardım şəklində müxtəlif məhsullar daxil olmuşdur.

# Əhalinin gəlirləri

2016-cı ilin yanvar-iyul aylarında ölkə əhalisinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 8,5 faiz artaraq 25682,7 milyon manata çatmışdır. Əhalinin hər nəfərinə düşən gəlirlər orta hesabla 2670,9 manat və ya ayda 381,6 manat təşkil etmişdir.

Bu dövr ərzində gəlirlərin 77,0 faizi son istehlak xərclərinə, 9,1 faizi vergilərin, sığorta və üzvlük haqlarının, 2,7 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 11,2 faizi isə yığıma yönəldilmişdir.

Əhalinin sərəncamında qalan gəlirlər 23349,9 milyon manat olmuşdur.

Cədvəl 62

**Əhalinin gəlirlərinin əsas göstəriciləri**

| | 2016-cı ilin yanvar-iyul ayları | Əvvəlki ilin eyni dövrünə nisbətən nominal artım sürəti, faizlə*) |
|---|---|---|
| Əhalinin gəlirləri, milyon manat | 25682,7 | 108,5 |
| hər nəfərə, manat | 2670,9 | 107,3 |
| Sərəncamda qalan gəlirlər, milyon manat | 23349,9 | 108,6 |
| hər nəfərə, manat | 2428,3 | 107,4 |

*) 2015-ci ilin aylıq göstəriciləri əldə olunmuş yeni məlumatlar əsasında dəqiqləşdirilmişdir.

## Əmək haqqı

2016-cı ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2015-ci ilin müvafiq dövrünə nisbətən 6,8 faiz artaraq 488,1 manat təşkil etmişdir. Əmək haqqı neft sektorunda 2733,7 manat, qeyri-neft sektorunda 434,8 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 367,8 manat, özəl müəssisələrdə çalışan işçilərin əmək haqları isə 660,4 manat olmuşdur.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, tikinti, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

## Əhalinin əmanətləri və manatın məzənnəsi

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə 2016-cı il iyulun 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz artaraq 7815,6 milyon manat təşkil etmişdir. Əmanətlərin 80,6 faizi xarici, 19,4 faizi isə milli valyutada qoyulmuşdur.

Əmanətlərin 77,6 faizi əhali tərəfindən özəl banklarda yerləşdirilmişdir.

Cədvəl 63

### Əhalinin əmanətləri

| | 2016-cı il iyulun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 7815,6 | 102,1 |
| o cümlədən: | | |
| milli valyutada | 1517,1 | 69,6 |
| xarici valyutada | 6298,5 | 115,1 |

Qrafik 32

**Əhalinin əmanətləri, mlyn. manat**




İyul ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,56 manata (ilin əvvəlindən 1,55 manata), 1 Avroya - 1,7276 manata (1,7286), 100 Rus rubluna - 2,43 manata (2,24) bərabər olmuşdur.

# Sosial təminat

2016-cı il iyulun 1-i vəziyyətinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu sistemində 1307,7 min nəfər pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 13,6 faizini təşkil edir. Onların 59,8 faizi yaşa, 29,0 faizi əlilliyə, 11,2 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz artaraq 189,6 manat təşkil etmiş və orta aylıq əmək haqqının 38,8 faizinə bərabər olmuşdur.

Qrafik 33

**Pensiyaların orta aylıq və yaşa görə əmək pensiyalarının baza hissəsinin (minimum pensiyanın) aylıq məbləğləri, ilin sonuna, manat**




Ölkədə pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 yanvar tarixli 1721 nömrəli Sərəncamına əsasən 2015-ci il üzrə

istehlak qiymətləri indeksinə uyğun olaraq cari ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmışdır. Bundan əlavə, ölkə başçısının 2016-cı il 16 yanvar tarixli 1704 nömrəli Sərəncamına uyğun olaraq 2016-cı il fevral ayının 1-dən yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği də 10 faiz artırılaraq 110 manat müəyyən edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun ilkin məlumatlarına əsasən, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə 1529,0 milyon manat vəsait yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 97,9 milyon manat və ya 6,8 faiz çoxdur. Vəsaitin 97,1 faizini pensiya xərcləri təşkil etmişdir.

2016-cı ilin altı ayı ərzində əhaliyə 44,9 milyon manat məbləğində müavinət ödənilmişdir ki, bunun da 28,8 faizi hamiləliyə və doğuma görə, 24,3 faizi əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 13,9 faizi dəfn üçün, 33,0 faizi isə digər məqsədlər üçün ödənilən müavinətlərin payına düşür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına görə, 2016-cı il iyulun 1-i vəziyyətinə 364,1 min nəfərə sosial müavinətlər təyin olunmuşdur. Yaşa görə müavinət alanların sayı 15,1 min nəfər, əlilliyə görə - 147,5 min nəfər, ailə başçısını itirməyə görə - 42,4 min nəfər, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşadək uşaqların sayı isə 70,0 min nəfər olmuşdur.

Ölkədə vətəndaşların rifah halını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 yanvar tarixli 747 nömrəli "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Fərmanına əsasən 2016-cı il fevral ayının 1-dən yaşa görə, əlilliyə görə, ailə başçısını itirməyə görə, sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına, əmək pensiyası almaq hüququ olmayan Azərbaycan Respublikasının

ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslərə, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, həmin illərdə keçmiş sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş, müharibə illərində orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, bu dövrdə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə, başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində iştirak etmiş şəxslərə və keçmiş SSRİ silahlı qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri kimi iştirak etmiş şəxslərə, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə və şəhid uşaqlarına, müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına və Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına verilən aylıq müavinətlərin, eləcə də radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə müalicə üçün, uşağın anadan olmasına görə, dəfn üçün verilən birdəfəlik sosial müavinətlərin məbləğləri orta hesabla 10 faiz artırılmışdır.

Əmək pensiyası almaq hüququ olmayan 54,2 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün müavinət verilmişdir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 467 nəfər qəyyumuna aylıq müavinət verilmişdir. Bununla yanaşı, şəhid ailələrinin, müharibə əlillərinin, I və II qrup Çernobıl AES əlillərinin və müddətli hərbi xidmət qulluqçularının 10,0 min ailəsinə 18,9 min uşaq

üçün aylıq müavinət verilmişdir. Bundan əlavə, 5128 nəfər bir yaşadək uşağa görə 5064 ailəyə və beşdən çox uşağı olan 3,1 min qadına 9,0 min uşaq üçün sosial müavinət verilmişdir.

2016-cı ilin altı ayı ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 60660 nəfərə, o cümlədən 51372 uşağın doğulmasına görə, 4443 nəfərə radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərin müalicəsi üçün, 3484 nəfərə penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə və həyatını itirmiş 1361 nəfərin dəfni üçün birdəfəlik müavinətlər verilmişdir.

Cari ilin iyulun 1-i vəziyyətinə əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində 459 nəfər zərərçəkən kompensasiya almışdır.

Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almış şəxslərin sayı 56,5 min nəfər olmuşdur.

Əlillərin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 yanvar tarixli 743 nömrəli və 2016-cı il 19 yanvar tarixli 746 nömrəli Fərmanlarına əsasən 2016-cı il fevral ayının 1-dən 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə və müharibə əlillərinə təyin olunmuş Azərbaycan Respublikası Prezidenti təqaüdlərinin aylıq məbləğləri 10 faiz artırılaraq I qrup əlillər üçün 165 manat, II qrup üçün 143 manat, III qrup üçün isə 110 manat müəyyən olunmuşdur.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 yanvar tarixli 748 nömrəli Fərmanına əsasən "Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlil olaraq sosial müavinət alanlara təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği 2016-cı il fevral ayının 1-dən 10 faiz artırılaraq 66 manata çatdırılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 yanvar tarixli 742 nömrəli Fərmanına əsasən 2016-cı il fevral ayının 1-dən şəhid ailələrinə, 2016-cı il 25 yanvar tarixli 1723 nömrəli Sərəncamına əsasən isə 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) təyin edilmiş Azərbaycan Respublikası Prezidenti təqaüdlərinin məbləğləri də 10 faiz artırılmış, müvafiq olaraq 220 və 110 manat həcmində müəyyən edilmişdir.

# Demoqrafik vəziyyət

Ölkə əhalisinin sayı ilin əvvəlindən 49,9 min nəfər və ya 0,5 faiz artaraq 2016-cı il iyul ayının 1-i vəziyyətinə 9755,5 min nəfərə çatmışdır. Əhalinin sıxlığı bir kvadrat kilometrə 113 nəfər olmuşdur.

Əhalinin ümumi sayının 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Cədvəl 64

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Yanvar - iyun | | | | | |
|---|---|---|---|---|---|---|
| | min | | | əhalinin hər 1000 nəfərinə[1)] | | |
| | 2016 | 2015 | artım (+) azalma (-) | 2016 | 2015 | 2016-cı il 2015-ci ilə nisbətən, faizlə |
| Təbii artım | 48,9 | 50,3 | -1,4 | 10,2 | 10,7 | 95,3 |
| doğulanlar | 77,3 | 78,4 | -1,1 | 16,1 | 16,6 | 97,0 |
| ölənlər | 28,4 | 28,1 | +0,3 | 5,9 | 5,9 | 100,0 |
| Nikahlar | 29,8 | 38,6 | -8,8 | 6,2 | 8,2 | 75,6 |
| Boşanmalar | 6,3 | 6,4 | -0,1 | 1,3 | 1,3 | 100,0 |

[1)] Əmsallar il üçün hesablanmışdır

Cari ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 77,3 min, yaxud hər gün orta hesabla 424 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 16,1 təşkil etmişdir. Doğulan körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarından ibarət olmuşdur. Körpələrin 1412-si əkiz, 36-sı isə üçəm doğulmuşdur.

Qrafik 34




Cari ilin birinci yarısında ölkədə 28,4 min ölüm halı qeydə alınmış, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi dəyişməyərək eyni səviyyədə (5,9) qalmışdır.

2016-cı ilin ilk 6 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 29,8 min nikah və 6,3 min boşanma halları qeydə alınmışdır. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,2, boşanmaların sayı isə 1,3 olmuşdur.

Cari ilin yanvar-iyun ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 1875 nəfər gələn və 818 nəfər ölkədən gedən qeydə alınmış, miqrasiya saldosu müsbət 1057 nəfər təşkil etmişdir.

# Hüquqpozmalar

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən, 2016-cı ilin yanvar-iyun ayları ərzində ölkədə 14251 cinayət faktı qeydə alınmışdır. Əhalinin hər 100 min nəfərinə hesabı ilə qeydə alınmış cinayət hadisələrinin sayı 148 olmuşdur. Onların 58,8 faizi az ağır, 26,8 faizi böyük ictimai təhlükə törətməyən, 14,4 faizi ağır və xüsusilə ağır cinayətlərə aiddir.

Cinayətlərin strukturunda 2346 hadisə şəxsiyyət əleyhinə, 7671 hadisə iqtisadi sahədə törədilən, 3510 hadisə ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, 712 hadisə dövlət hakimiyyəti əleyhinə (o cümlədən, 134 hadisə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər), 12 hadisə isə sülh və insanlıq əleyhinə olan cinayətlərdir.

Qrafik 35

**Qeydə alınmış cinayətlərin strukturu**



Qeydə alınmış şəxsiyyət əleyhinə olan cinayətlərdən 142-si qəsdən adam öldürmə və adam öldürməyə cəhd, 168-i qəsdən sağlamlığa ağır zərər vurma, 13-ehtiyatsızlıqdan adam öldürmə, 93-ü insan alveri, 10-u adam oğurluğu (o cümlədən, 4-ü evlənmək məqsədilə qadın oğurluğu), 6-sı əzab vermə cinayətlərinə aiddir.

Hesabat dövründə 64 cinayət hadisəsi xarici ölkələrin, onların 8-i isə MDB-yə üzv olan ölkələrin vətəndaşları tərəfindən törədilmişdir.

2016-cı ilin birinci yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərdə 11,1 faiz, torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma cinayətlərində 23,5 faiz, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərdə 65,3 faiz, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərdə 8,7 faiz azalma, insan alveri ilə bağlı cinayətlərdə 16,3 faiz, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərdə isə 48,9 faiz artım müşahidə olunmuşdur. Bu dövr ərzində yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər də 5,8 faiz azalmışdır.

Cari ilin 6 ayı ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 1733 cinayət hadisəsi qeydə alınmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz azdır. Qeydə alınmış cinayətlərin 26,4 faizi satış məqsədi ilə törədilmişdir.

Əməliyyat istintaq tədbirləri nəticəsində hesabat dövründə qeydə alınmış cinayətlərin 47,4 faizi açılmışdır. Açılmış cinayətlərin 1303-ü əvvəllər də cinayət törətmiş şəxslər, 952-si qrup şəklində, 161-i sərxoş vəziyyətdə, 176-sı yetkinlik yaşına çatmayan uşaqlar və ya onların iştirakı ilə, 211-i isə narkomanlar və ya narkotik təsir altında olan şəxslər tərəfindən törədilmişdir.

2016-cı ilin birinci yarısında cinayət törətmiş şəxslərin 84,2 faizi cinayət məsuliyyətinə cəlb olunmuşdur ki, onların da 75,6 faizi əmək qabiliyyətli yaşda olub, heç bir yerdə oxumayan və işləməyənlər, 15,6 faizi əvvəllər də cinayət törətmiş şəxslərdir. Cinayət törətmiş şəxslərin arasında qadınların xüsusi çəkisi 6,5

faiz, yetkinlik yaşına çatmayan uşaqların payı isə 2,8 faiz təşkil etmişdir.

Qeydə alınmış 434 cinayət hadisəsi məişət zorakılığı ilə bağlı olmuş və onların 7,4 faizi sərxoş vəziyyətdə, 11,8 faizi əvvəllər də cinayət törətmiş şəxslər tərəfindən törədilmişdir. Məişət zorakılığı nəticəsində baş vermiş cinayətlərin 0,9 faizi qəsdən adam öldürmə və adam öldürməyə cəhd, 1,2 faizi qəsdən sağlamlığa ağır zərər vurma, 96,1 faizi qəsdən sağlamlığa az ağır və yüngül zərər vurma, 0,9 faizi əzab vermə, 0,9 faizi də digər cinayətlərə aiddir. Məişət zorakılığı cinayətləri nəticəsində 521 nəfər zərər çəkmişdir ki, onların da 81 faizini qadınlar təşkil edir.

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsi**
**sədrinin səlahiyyətlərini**
**müvəqqəti icra edən,**
**sədrin birinci müavini** **Vahab Məmmədov**